

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 67 (7322) / Çərşənbə axşamı, 16 aprel 2019-cu il


# Böyük Vətən müharibəsi iştirakçılarına Azərbaycan Prezidentinin təqaüdünün məbləği artırılıb



*Prezident İlham Əliyev "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.*

*Dəyişikliyə əsasən, "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli sərəncamının 1-ci hissəsində "121 (yüz iyirmi bir)" sözləri "150 (yüz əlli)" sözləri ilə əvəz edilib.*

*Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.*

*Bu sərəncam 2019-cu il aprelin 1-dən tətbiq edilir.*



## SOCAR-ın APREL İMƏCİLİYİ: 30 minə yaxın insan on minlərlə ağac və gül kolu əkib

⇧ Baxı: səh. 3

## Naxçıvanda müşavirə





⇧ Baxı: səh. 4

## "Kaspi" Təhsil Mərkəzi Aprel döyüşçülərinin xatirəsini yad etdi



⇨ Baxı: səh. 3



## XİN Moskva görüşü barədə bəyanat yayıb

⇧ Baxı: səh. 3

## YAP Ucar rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı



⇧ Baxı: səh. 13


9 — *Sahibkarlığa dövlət qayğısının parlaq təzahürü:* Son bir ildə 1009 sahibkara 132,6 milyon manat güzəştli kredit verilib

14 — Sarı kəsişmə toru haqqında nəyi bilmirik?

16 — "Kral" meyvəsinin faydaları

# Müharibə veteranlarına Prezident təqaüdü təsis edilib



**Prezident İlham Əliyev "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında fərman imzalayıb.**

Fərmanda qeyd edilir ki, "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilsin və onun aylıq məbləği 80 manat müəyyən olunsun.

2. Müəyyən edilir ki, fərmana əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir; dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik tərəfindən ödənilir;

bu Fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünü və müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə, ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünü almaq hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin qeyd olunan təqaüdlərindən yalnız biri - ən yüksəyi verilir.

Nazirlər Kabinetinə tapşırılır ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Fərmandan irəli gələn məsələləri həll etsin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verəcək.

Bu Fərmanın 1-ci və 2-ci hissələri 2019-cu il aprelin 1-dən tətbiq edilir.

## Əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara qulluq edən şəxslərə Azərbaycan Prezidentinin təqaüdü təsis edilib

Prezident İlham Əliyev "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında fərman imzalayıb.

Fərmanda qeyd olunur ki, "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilsin və onun aylıq məbləği 50 manat müəyyən olunsun.

2. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsi ilə təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

2.1. 2019-cu il aprelin 1-dək I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir;

2.2. təqaüdü almaq hüququ olan şəxslərdən yalnız birinə ödənilir;

2.3. bu məqsədlər üçün dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılmış xərclər hesabına həmin nazirlik tərəfindən bu Fərmanın 3.1.2-ci yarımbəndində nəzərə tutulan qaydaya uyğun olaraq ödənilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bir ay müddətində:

3.1.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. bu Fərmanın 1-ci hissəsi ilə təsis edilən təqaüdün ödənilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.5. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Fərmanın 1-ci və 2-ci hissələri 2019-cu il aprelin 1-dən tətbiq edilir.

## Akademik Məmməd Cəfər Cəfərovun 110 illiyi qeyd ediləcək

Prezident İlham Əliyev akademik Məmməd Cəfər Cəfərovun 110 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

2019-cu ilin may ayında görkəmli ədəbiyyatşünas və tənqidçi, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycanın Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Məmməd Cəfər Zeynalabdin oğlu Cəfərovun anadan olmasının 110 illiyi tamam olur.

Akademik Məmməd Cəfər Cəfərov ömrünün 60 ilə yaxın bir dövrünü ölkədə ədəbi-nəzəri fikrin inkişafına həsr etmiş, ədəbiyyatın tarixi və nəzəriyyəsi, ədəbi əlaqələr və eləcə də estetikanın aktual məsələlərinə dair fundamental araşdırmaları ilə Azərbaycan ədəbiyyatşünaslığını əhəmiyyətli dərəcədə zənginləşdirmişdir. Onun geniş əhatəli elmi irsində Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid və Səməd Vurğun kimi qüdrətli söz ustalarının yaradıcılıqlarının fəlsəfi-estetik mahiyyətini dünya ədəbi təcrübəsi ilə vəhdətdə dolğun şərh edən, yüksək elmi-nəzəri ümumiləşdirmə gücünə malik əsərləri xüsusi yer tutur. Azərbaycan ədəbiyyatında romantizm cərəyanının təşəkkülü və inkişafının ilk müfəssəl tədqiqi Məmməd Cəfər Cəfərovun adı ilə bağlıdır. Pedaqoji sahədə uzun müddət uğurla çalışan və qiymətli dərsliklər müəllifi olan alim, həmçinin elmi kadrların hazırlanması istiqamətində təqdirəlayiq fəaliyyət göstərmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasına Təhsil Nazirliyi ilə birlikdə akademik Məmməd Cəfər Cəfərovun 110 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirmək, Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya ləğv olunub



Prezident İlham Əliyev "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 27 sentyabr tarixli 128 nömrəli fərmanının ləğvi haqqında Fərman imzalayıb.

Azadinform-un məlumatına görə, fərman "Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 411 nömrəli fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə imzalanıb.

## SURAXANIDA AVTOMOBİL YOLLARININ YENİDƏN QURULMASINA 3 MİLYON MANAT AYRILIB

Prezident İlham Əliyev Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

## "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" fərmana dəyişiklik edilib

**Prezident İlham Əliyev "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.**

Fərmana dəyişikliyə əsasən 1.1.1-ci yarımbənddə "73" rəqəmləri "130" rəqəmləri ilə əvəz edilir; 1.1.2-ci yarımbəndin ikinci - dördüncü abzasları aşağıdakı redaksiyada verilir:

"I dərəcə əlilliyi olan şəxslərə - 150 manat

II dərəcə əlilliyi olan şəxslərə - 130 manat

III dərəcə əlilliyi olan şəxslərə - 110 manat;";

1.1.3-cü yarımbəndin ikinci - dördüncü abzasları aşağıdakı redaksiyada verilir:

"I dərəcə əlilliyi olan şəxslərə - 150 manat

II dərəcə əlilliyi olan şəxslərə - 130 manat

III dərəcə əlilliyi olan şəxslərə - 110 manat;";

1.4. 1.1.4-cü yarımbəndin ikinci - dördüncü abzasları aşağıdakı redaksiyada verilir:

"I dərəcə əlilliyi olan şəxslərə - 150 manat

II dərəcə əlilliyi olan şəxslərə - 130 manat

III dərəcə əlilliyi olan şəxslərə - 110 manat;";

1.1.5-ci yarımbənddə "82" rəqəmləri "150" rəqəmləri ilə əvəz edilir;

1.1.6-cı yarımbənddə "68" rəqəmləri "80" rəqəmləri ilə əvəz edilir;

1.1.8-ci yarımbənddə "68" rəqəmləri "100" rəqəmləri ilə əvəz edilir;

1.9. 1.1.9-cu yarımbənddə "61" rəqəmləri "100" rəqəmləri ilə əvəz edilir;

1.1.11.2-ci yarımbənddə "müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş" sözləri "müharibə ilə və ya 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilir;

Bundan başqa, 1.2.2-ci yarımbənddə "109" rəqəmləri "200" rəqəmləri ilə əvəz edilir; 1.2.3-cü yarımbənddə "146" rəqəmləri "300" rəqəmləri ilə əvəz edilir.

Nazirlər Kabinetinə bu fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Fərman 2019-cu il aprelin 1-dən tətbiq edilir.

# SOCAR-ın APREL İMƏCİLİYİ:
# 30 minə yaxın insan on minlərlə ağac və gül kolu əkib





**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlardan olasınız" kəlamını ekoloji fəaliyyətində daim rəhbər tutan SOCAR ətraf mühitin qorunması istiqamətində çoxşaxəli kompleks tədbirlər planını davam etdirir.**







Şirkətin əməkdaşları hər il yaz və payız mövsümlərində genişmiqyaslı iməciliklər keçirir, idarə və müəssisələrin ərazilərini tullantılardan təmizləyir, abadlıq, yaşıllaşdırma işləri aparır, əvvəllər salınmış yaşıllıqlara aqrotexniki qulluq göstərirlər. Yaz mövsümü ilə əlaqədar cari ilin aprel ayı ərzində şirkətin bütün strukturlarında şənbə iməcilikləri keçirilməkdədir.

Aprelin 13-də SOCAR rəhbərliyi və baş ofisinin kollektivi Pirallahı rayonunda "Abşeronneft" NQÇİ-nin ərazisində keçirilən iməcilikdə iştirak etmişdir. İməcilik zamanı ərazinin təbii xüsusiyyətlərinə uyğun olan 5 mindən artıq ağac və gül bitkiləri əkilmiş, mövcud yaşıllıqlara müvafiq aqrotexniki qulluq göstərilmiş, ağacların dibləri yumşaldılmış və abadlıq işləri aparılmışdır.

"Azneft" İB-nin "Abşeronneft" NQÇİ-nin kollektivi Pirallahı adasında ekoloji tarazlığın bərpası məqsədilə indiyədək 13,5 hektarlıq mədən ərazisini bioremediasiya üsulu ilə neft şlamından təmizləmiş, daxili imkanlar hesabına 18,3 hektarlıq sahəni abadlaşdırmış və həmin sahələrdə 70 mindən artıq ağac, müxtəlif növ gül kolları əkmişdir. Dəniz özüllərində isə quyuların yeraltı və cari təmiri zamanı istifadə olunan lay sularının idarə olunması üçün qurğular quraşdırılmışdır.

Qeyd edək ki, aprel ayı ərzində keçirilən iməciliklərdə SOCAR-ın müxtəlif idarə və müəssisələrində çalışan təxminən 30 min əməkdaşının iştirakı ilə on minlərlə ağac və gül kolunun əkilməsi, əvvəllər əkilmiş ağac və gül kollarına aqrotexniki qulluq göstərilməsi, habelə abadlıq işlərinin aparılması planlaşdırılır. İməciliklərdə mədən ərazilərinin təbii xüsusiyyətlərinə uyğun olan bitkilərə - şam, çinar, Avropa zeytunu, Eldar şamı, eləcə də qızılgül və dekorativ gül kollarına üstünlük verilir.

# "Kaspi" Təhsil Mərkəzi Aprel döyüşçülərinin xatirəsini yad etdi



**Dünən "Kaspi" Tədris Mərkəzinin təşkilatçılığı ilə aprel döyüşçülərinin xatirəsi anıldı. SİA-nın məlumatına görə, ədəbi-bədii gecə Azərbaycan Dövlət Musiqili Teatrında keçirildi. Tədbirdə dövlət rəsmiləri, deputatlar, Aprel döyüşçülərinin ailə üzvləri iştirak edirdi.**



Qeyd edək ki, səhnələşdirilən tamaşalar "Kaspi" Tədris Mərkəzinin şagirdləri tərəfindən məharətlə icra edildi. Dərin vətənpərvərlik ruhuna köklənmiş tədbirdə bir-birindən maraqlı və təsirli tamaşalar göstərildi. Şagirdlərin rol aldıqları səhnələr tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Sonda "Kaspi" Təhsil Mərkəzinin rəhbəri Sona Vəliyeva çıxış edərək Aprel döyüşçülərinin əhəmiyyətindən danışdı. O, şəhid olmuş əsgərlərin ailə üzvlərinə üz tutaraq şəhid olan qəhrəman əsgərlərimizin heç bir zaman unudulmayacaqlarını bildirdi: "Mən topraqlarımızın tezliklə azad olunacağından əminəm. Biz şəhidlərin ruhu qarşısında baş əyirik. Bütün şəhid ailələri bilməlidir ki, biz hər zaman qəhrəman şəhidlərimizi qəlbimizdə, xatirələrimizdə yaşadacağıq ".



# XİN MOSKVA GÖRÜŞÜ BARƏDƏ BƏYANAT YAYIB



Bu ilin 15 aprel tarixində Moskva şəhərində Rusiya tərəfinin təşəbbüsünə əsasən, Rusiya xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında görüş keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən Trend-ə verilən məlumata görə, görüşdə, həmçinin ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in Fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi iştirak ediblər.

Görüş zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə başlıca məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. Bu xüsusda, cari ilin 29 mart tarixində Vyanada baş tutmuş Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin görüşünün nəticələri diqqətə alınmaqla, münaqişə üzrə danışıqlar prosesinin irəli aparılması perspektivləri nəzərdən keçirilib.

Görüşdə, həmçinin münaqişə zonasında gərginliyin azaldılmasına dair tədbirlər, habelə humanitar sahədə mümkün birgə fəaliyyət üzrə fikir mübadiləsi aparılıb. Nazirlər, KİV nümayəndələrinin qarşılıqlı səfərləri də daxil olmaqla, insanlararası təmasların qurulması istiqamətində praktiki addımların atılmasına razılıqlarını ifadə ediblər.

Görüş iştirakçıları yaxın gələcəkdə təmasların davam etdirilməsini razılaşdırıblar.

Görüş nəticəsində Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin və ATƏT-in həmsədrlərinin birgə bəyanatı qəbul edilib.

*Baş nazir:*

## Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz iqtisadi fəaliyyət narkotrafikə və digər cinayət hallarına şərait yaradır



Dünya ictimaiyyəti hərbi münaqişə zonalarından narkotiklərin qanunsuz dövriyyəsi üçün istifadə olunmasından narahatlıq hissi keçirir. Azərbaycan da belə bir problemlə üzləşib. 25 ildən çoxdur ki, Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və ətraf yeddi rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib.

Trend-in məlumatına görə, bunu Baş nazir Novruz Məmmədov Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransda çıxışı zaman deyib.

N.Məmmədov bildirib ki, Azərbaycanın işğal altındakı ərazilərindən narkotik vasitələrin istehsalı və tranzit üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə münbit şərait yaradır:

"Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizə cəlb edilən şirkətlərin qanunsuz iqtisadi fəaliyyəti işğalın davam etdirilməsinə, eləcə də narkotrafikə və digər cinayət hallarına şərait yaradır".

Baş nazir qeyd edib ki, bu halların aradan qaldırılması üçün işğal olunmuş ərazilərdə iqtisadi-maliyyə fəaliyyətlərinin, pul köçürmələrinin, sərmayə yatırımlarının qarşısı alınmalıdır: "Azərbaycan tərəfindən sözügedən vəziyyətə nəzarət edilməsi məqsədilə müvafiq qara siyahılar tərtib olunub. Bununla bağlı Azərbaycan işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətə cəlb olunan fiziki və hüquqi şəxslərin mənsub olduğu ölkələri müvafiq tədbirlər görməyə çağırır".

## *Əli Həsənov:* İran-Azərbaycan sərhədinin 132 kilometri bizim nəzarətimizdə deyil



Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində İran-Azərbaycan sərhədinin 132 kilometri bizim nəzarətimizdə deyil.

Trend-in məlumatına görə, bunu Baş nazirin müavini Əli Həsənov Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransına həsr olunmuş mətbuat konfransında deyib.

Baş nazirin müavini Azərbaycanın işğal olunmuş ərazilərində narkotiklərin qanunsuz dövriyyəsi haqqında danışarkən qeyd edib: "Bu ərazilər erməni silahlı bölmələri tərəfindən işğal edilib. Erməni işğalındakı torpaqlar çox münbitdir. Orada narkotik bitkilər becərilir, bunun üçün laboratoriyalar inşa edilib".

Ə.Həsənov vurğulayıb ki, məsələ ilə bağlı sənədlər BMT-nin Vyana ofisinə təqdim olunub. Bundan sonra monitorinq qrupu yaradılıb, lakin Ermənistan həmin qrupu işğal etdiyi ərazilərə buraxmayıb.

Baş nazirin müavini mətbuat konfransında Bakıda apteklərdə psixotrop tərkibli dərmanların satılması ilə bağlı suala cavabında isə deyib ki, bunun qarşısına almaq üçün ciddi tədbirlər görülüb və bu gün elə bir şey mümkün deyil.

Ə.Həsənov qeyd edib ki, əvvəllər belə hal qeydə alınsa da, bu gün həmin faktlara rast gəlinmir.

# Naxçıvanda müşavirə




**Aprelin 15-də "Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə" müşavirə keçirilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq deyib ki, ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında innovasiyalar uğurla tətbiq olunur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikanın bütün ərazisi fiber-optik xətlə, stasionar və mobil rabitə xidməti, eləcə də sürətli internetlə təmin edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək deyib ki, muxtar respublikada innovativ inkişafa dayanan təhsil siyasəti həyata keçirilir. Təhsilin inkişafına dair yeni fərman və sərəncamlar imzalanır, maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov deyib ki, muxtar respublikada əhalinin bütün təbəqələri müasir rəqəmsal xidmətlərdən istifadə imkanı əldə ediblər. Hazırda muxtar respublikanın telekommunikasiya əlaqələrini təmin edən 1600 kilometrdən artıq optik kabel xətləri mövcuddur.



Müşavirədə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev aidiyyatı üzrə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəyə çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikasında son illərdə təhsilin davamlı inkişafını təmin edən sərəncamların qəbul edilməsi, güclü təhsil infrastrukturunun, maddi-texniki bazanın yaradılması, yüksək ixtisaslı kadr hazırlığını təmin edən dövlət proqramlarının, layihələrin uğurlu tətbiqi təhsilin beynəlxalq standartlar səviyyəsinə uyğunlaşmasına təkan verir: "Bu gün Naxçıvan Dövlət Universitetində 60 ixtisas üzrə bakalavr, 42 ixtisas üzrə magistr, 15 ixtisas üzrə rezident, 11 ixtisas üzrə əlavə təhsil, Naxçıvan Müəllimlər İnstitutunda 8 ixtisas üzrə bakalavr, 3 ixtisas üzrə magistr, "Naxçıvan" Universitetində 15 ixtisas üzrə bakalavr, 6 ixtisas üzrə magistr, Naxçıvan Tibb Kollecində 8, Naxçıvan Dövlət Texniki Kollecində 8, Naxçıvan Musiqi Kollecində 10, peşə liseyi və məktəblərində isə ümumilikdə 22 ixtisas üzrə kadr hazırlanır. Kadr hazırlığı aparılan ixtisaslar muxtar respublikanın tələbatına tam uyğunlaşdırılmışdır. Hər il muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrini 2200-dən artıq məzun bitirir. Peşə liseyi və məktəblərində isə hər il 3 mindən çox gənc müxtəlif peşələrə yiyələnir. Daim yeniləşən və təhsilin inkişafını tələb edən informasiyalı cəmiyyət kadr hazırlığı işinin yeni müstəvidə hazırlanmasını tələb edir. Ali Məclis Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı kadr hazırlığına müasir yanaşma və vətəndaşın cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin edir. Yeni Sərəncamla 3 ali və 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 109 ixtisas və 1 lisey müvafiq 36 təşkilata hamiliyə verilmişdir. Əlavə olaraq "İdeyadan başlanğıca" devizi ilə hami təşkilatlarla hamiliyə verilən təhsil müəssisələri arasında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin - startapların həyata keçirilməsi nəzərdə tutulub".

Ali Məclisin Sədri aid təşkilatlara tapşırıqlar verərək deyib ki, müasir dövrdə təhsil cəmiyyətin inkişafını təmin edən aparıcı istiqamət kimi davamlı olaraq yeniləşmə, ən son texnologiyalardan istifadə yolu ilə mütərəqqi ideyaların, bilik və bacarıqların tətbiqi xarakterini alır. Müasir əmək bazarında praktik bilik və bacarıqlara yiyələnmiş kadrlara tələbat artır. Buna görə də hami təşkilatlar ali və orta ixtisas təhsili müəssisələri ilə birlikdə kadr hazırlığına diqqəti artırmalı, qarşılıqlı əməkdaşlıq imkanlarından daha səmərəli istifadə etməli, kadrların ixtisas üzrə təcrübi bilik və bacarıqlarının artırılmasına nail olmalıdırlar. Bu səbəbdən hami təşkilatlar və hamiliyə verilən qurumlar arasında görüşlər intensiv xarakter daşımalıdır. Hami təşkilatlarla hamiliyə verilən ixtisaslar arasında əməkdaşlıq yeni ideya mübadiləsinə və innovasiyaların yaranmasına gətirib çıxara bilər. Bu zərurətdən yaranan "Startap Naxçıvan" hərəkatının əsas məqsədi muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır.

Müşavirədə Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinə tapşırılıb ki, "Naxçıvan Muxtar Respublikasında startapın inkişaf perspektivləri" adlı respublika konfransının keçirilməsini təmin etsin. Həmçinin "Kəşf et, öyrən, yarat!" devizi altında startap günlərinin keçirilməsi təmin edilsin. Startap fəaliyyətinə nəzarət mexanizmini asanlaşdıran internet portalının yaradılması və fəaliyyətinə nəzarət, startapla bağlı məlumatlandırıcı buklet, broşur və kitabçaları hazırlasın.

Ali Məclisin Sədri qarşıda duran vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulayıb.

Sonda "Startap layihələri və innovativ inkişaf" filminə baxış olub.

# TANAP VASİTƏSİLƏ SINAQ QAZ TƏDARÜKÜ BAŞLAYIB



"Cənub Qaz Dəhlizi" layihəsinin bir hissəsi olan Trans-Anadolu qaz kəmərinin (TANAP) 1-ci mərhələsi çərçivəsində sınaq qaz tədarükü başlayıb.

Bu barədə Trend-ə TANAP konsorsiumundan mənbə bildirib.

Konsorsiumdan deyilib ki, bu, sistemin sınaqdan keçirilməsi üçün istifadə olunacaq təbii qazdır: "Təbii qazın kommersiya tədarükü Transadriatik qaz kəməri (TAP) qazı qəbul etməyə hazır olduqdan sonra başlayacaq. TANAP bütün mərhələlərdə hazırdır, lakin TAP hazır olmayana qədər qazın Avropaya kommersiya tədarükü mümkün deyil".

Qeyd edək ki, TANAP Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan "Cənub Qaz Dəhlizi"nin bir hissəsidir.

İyunun 12-də Türkiyənin Əskişəhərdə TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib.

Uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

Boru kəməri 2019-cu ilin iyununda Yunanıstan sərhədinə çatacaq. Sınaq işlərindən sonra ilin sonunadək Yunanıstana təbii qaz nəql ediləcək.

# KİV-lərin əməkdaşlığı iki qardaş xalqın münasibətlərinin möhkəmlənməsinə töhfə verəcək





Azərbaycan və Gürcüstan KİV-ləri arasında əməkdaşlığın genişləndirilməsi iki qardaş xalqın münasibətlərinin möhkəmlənməsinə töhfə verəcək.

Bu fikir AZƏRTAC-ın idarə heyətinin sədri Aslan Aslanov Gürcüstanın ölkəmizdəki səfiri Zurab Pataradze ilə görüşündə ifadə edilib.

AZƏRTAC-ın idarə heyətinin sədri qonağa rəhbərlik etdiyi agentliyin yaradılması tarixi və fəaliyyəti barədə ətraflı məlumat verib, ümummilli lider Heydər Əliyevin Dövlət İnformasiya Agentliyinin maddi-texniki bazasının möhkəmlənməsində və kadr potensialının yüksəkdilməsində rolunu qeyd edib. Hazırda AZƏRTAC-ın xəbərləri 8 dildə yayılır, 21 ölkədə agentliyin müxbir məntəqələri fəaliyyət göstərir.

AZƏRTAC-ın beynəlxalq ələqələrinə toxunan Aslan Aslanov vurğulayıb ki, agentlik dünyanın 150 informasiya agentliyi ilə uğurlu əməkdaşlıq edir, EANA, OANA və digər dünya informasiya alyanslarının üzvüdür. AZƏRTAC 2016-2019-cu illərdə Dünya Xəbər Agentlikləri Konqresində və OANA-da sədrlik edir.

Azərbaycan və Gürcüstan KİV-ləri arasında əməkdaşlığın zəruriliyindən danışan AZƏRTAC-ın idarə heyətinin sədri qeyd edib ki, bu, qədim tarixi köklərə söykənən dostluğa malik olan iki qardaş xalq arasında münasibətlərin möhkəmlənməsinə töhfə verəcək.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Zurab Pataradze deyib ki, Azərbaycan KİV-ləri ilə tanışlığa ölkənin ən yüksək reytinqli agentliyi - AZƏRTAC-dan başlamaq qərarına gəlib. O, həmçinin iki ölkənin jurnalistləri arasında əlaqələrin daha da möhkəmlənəcəyinə ümidvar olduğunu bildirib.

Diplomat vurğulayıb ki, ölkələrimiz arasında iqtisadi əlaqələr yüksələn xətlə inkişaf edir. Buna misal olaraq, Gürcüstan səfiri ildən-ilə artan əmtəə dövriyyəsini, iyunun 14-də açılacaq və şübhəsiz ki, daha çox turist axınına səbəb olacaq Bakı-Batumi marşrutu üzrə müntəzəm reysləri göstərib. Batumiyə reysin açılışı günü Azərbaycan Mədəniyyəti günləri ilə bağlı tədbir də keçiriləcək.

Z.Pataradze, həmçinin Acariyadan olan uşaqların Azərbaycanın tanınmış kurortu - Naxçıvandakı "Duzdağ"da müalicəsinin təşkili üçün təşəkkürünü bildirib. Səfir məlumat verib ki, azərbaycanlı məktəblilərin Gürcüstanın görməli yerlərinə səyahəti də planlaşdırılır.

## YAP Zərdab rayon təşkilatı Gənclər Birliyinin yeni sədri seçilib



**Yeni Azərbaycan Partiyası (YAP) Zərdab rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib. YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova konfransın gündəliyi haqqında məlumat verib.**

Rayon təşkilatının Gənclər Birliyinin sədri Ələkbər Kərimov qurumun ötən konfransdan sonrakı dövr ərzindəki fəaliyyəti barədə danışıb. Qeyd olunub ki, YAP Zərdab rayon təşkilatı Gənclər Birliyi üzvlərinin 762 nəfərini qadınlar təşkil edir. Gənc üzvlərin 561 nəfəri ali, 291 nəfəri orta ixtisas, 893 nəfəri orta təhsillidir. Gənclərin 415 nəfəri təhsil, 114 nəfəri səhiyyə, 138 nəfəri idarəetmə, 101 nəfəri elm, mədəniyyət və incəsənət sahəsində, qalan 967 nəfər isə digər idarə və müəssisələrdə çalışır.

Daha sonra partiyanın gənc üzvləri Rəmzi Şirinov, Nərmin Babaşova, Vəfadar İbrahimzadə çıxış edərək partiyanın yaranma tarixi, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı və dövlət gənclər siyasətinin uğurları, müasir şəraitdə gəncləri düşündürən və eyni zamanda onları narahat edən məsələlər barədə məlumat veriblər.

Sonra təşkilati məsələlərə baxılıb. YAP Zərdab rayon təşkilatı Gənclər Birliyinin 17 nəfərdən ibarət Şurası, 11 nəfərdən ibarət İdarə Heyəti seçilib. Gizli səsvermə yolu ilə Yarməmmədbağı kənd tam orta məktəbinin müəllimi Rəmzi Şirinov YAP Zərdab rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib. Nərmin Babaşova və Vəfadar İbrahimzadə sədrin müavinləri seçiliblər. YAP Zərdab rayon təşkilatı Gənclər Birliyinin sədri Rəmzi Şirinov və sədr müavini Nərmin Babaşova YAP Gənclər Birliyinin V konfransına nümayəndə seçiliblər.

Daha sonra toplantıda çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov, Milli Məclisin deputatları Jalə Əliyeva və Cavid Osmanov Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, ulu öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin uğurlarından danışıblar. Çıxışlarda, həmçinin Zərdab rayon gənclərinin də ölkəmizin ictimai həyatında fəal iştirakından danışılıb, bu baxımdan Gənclər Birliyinin fəaliyyəti yüksək qiymətləndirilib.

Konfransda çıxış edən Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütfəli Babayev partiyanın yaranma tarixi, onun keçdiyi şərəfli yol, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin respublikamızın hərtərəfli və sürətli inkişafı naminə həyata keçirdiyi çoxşaxəli və innovativ islahatlar barədə geniş məlumat verib.

Yekunda Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunmuş bir qrup gəncə partiyanın üzvlük vəsiqələri təqdim olunub.

**Orxan Vahidoğlu, *"İki sahil"***

## Çexiyada Azərbaycan mədəniyyətinə həsr olunmuş sərgi

Aprelin 11-də Çexiyanın Ostrava Universitetinin Fəlsəfə fakültəsində Azərbaycanın Çexiyadakı səfirliyi və Bakı Slavyan Universitetinin (BSU) birgə təşkilatçılığı ilə Azərbaycan mədəniyyətinə həsr olunmuş sərgi keçirilib. Tədbirdə Azərbaycanın qədim, orta və müasir dövrlərinə aid memarlıq komplekslərini, eləcə də təbiətini əks etdirən fotoşəkillər nümayiş olunub.






Azərbaycan Fotoqraflar Birliyinin üzvləri - Mirnaib Həsənoğlu, Əminə Mirili, Fərqanə Qasımlı, Rauf Umudov, Fətəli Fətəliyev və İsmayıl Kərimova məxsus fotoşəkillərdə Azərbaycana aid qədim alban kilsə və monastr kompleksləri, orta əsrlərə, Şirvanşahlar dövrünə aid saray tikililəri, Azərbaycanın UNESCO-nun qeyri-maddi mədəni irsi siyahısına daxil edilmiş Qız qalası abidəsi və digər bir çox turizm baxımdan maraq doğuran məkanlar əksini tapıb.

Sərgini giriş sözü ilə açan Ostrava Universitetinin Fəlsəfə fakültəsinin nümayəndəsi Nela Parmova Azərbaycanın qədim tarixi və mədəniyyət nümunələrindən söz açıb.

Tədbirdə çıxış edən Azərbaycanın Çexiyadakı fövqəladə və səlahiyyətli səfirinin köməkçisi Eldar Vəliyev, Bakı Slavyan Universitetinin Çex Dili və Mədəniyyəti Mərkəzinin müdiri Qəmbər Qəmbərov Çexiya-Azərbaycan əlaqələrinin, eləcə də Ostrava Universitetinin Bakı Slavyan Universiteti ilə əməkdaşlığının perspektivləri barədə fikirlərini iştirakçılarla bölüşüblər.

Sərginin davamında Heydər Əliyev Fondunun hazırladığı "Land of Fires" ("Odlar Yurdu") adlı videonun təqdimatı olub, Azərbaycan bayrağı və rəqsləri barədə məlumat verilib, sərgi iştirakçıları ilə birgə "Yallı" rəqsi oynanılıb.

Qeyd edək ki, sərgi öz işini üç həftə ərzində davam etdirəcək.

## Sıldırım qayalardan keçən rahat yollar

Lerikdə yolların çəkilişi, bərpası, eləcə də yenidən qurulması işləri böyük vüsət almışdır. İndi hətta əksər ucqar kənd yollarına belə asfalt döşənib. Vaxtilə keçilməz hesab olunan dağ yollarında həm minik, həm də yük avtomobilləri sərbəst, rahat hərəkət edir. Yenidən qurulan bir neçə dağ kəndini birləşdirən Piran-Hamarat avtomobil yolu keyfiyyətinə görə dünya standartları səviyyəsinə cavab verir. 55 kilometr olan Lənkəran-Lerik yolu yeni layihə əsasında tikilir. Ölkə başçısı bu məqsədlə 9,2 milyon manat vəsait ayırmışdır. Hər dəqiqənin qədrini bilən inşaatçılar yolun tikintisini uğurla davam etdirirlər.

Hamarat-Qışlaq kənd yolu 8 kilometr məsafəni birləşdirir. Bu yol sıldırımlı qayalardan keçir. Hazırda yol yenidən qurulur. Belə ki, burada olan sərt qayalar, döngələr ləğv edilir, yolun çiyin hissələri genişlənir. Bütün işlər ardıcıl yerinə yetirilməklə keyfiyyətə də xüsusi fikir verilir.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# Jurnalistika ixtisası üzrə magistraturaya qeydiyyat başlayıb



Jurnalistika ixtisası üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar üçün qeydiyyat başlayıb.

Dövlət İmtahan Mərkəzindən (DİM) Trend-ə verilən məlumat görə, ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul imtahanının birinci mərhələsində 50 və daha çox bal toplayaraq müsabiqə şərtlərini ödəyən və imtahanın ikinci mərhələsinə buraxılan bütün bakalavrlar bitirdikləri bakalavr ixtisaslarından asılı olmayaraq, jurnalistika ixtisası üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq üçün müraciət edə bilərlər.

Həmin bakalavrlar 2019-cu il aprelin 16-dan 25-dək DİM-in internet saytında qeydiyyatdan keçməli və 2019-cu il mayın 1-dən 3-dək qabiliyyət imtahanı verməlidirlər.

Jurnalistika üzrə proqramı yalnız qabiliyyət imtahanında iştirak edən və "məqbul" qiymət alan bakalavrlar seçə bilərlər.

Jurnalistika üzrə ixtisaslaşmalara qəbul olmaq istəyənlər 2019-cu il aprelin 16-dan 25-dək DİM-in internet saytının müvafiq səhifəsində həmin ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrların qeydiyyatı üçün nəzərdə tutulmuş bölməyə daxil olaraq sorğu anketini doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Qabiliyyət imtahanında iştirak ödənişlidir. Bakalavrlar "Sorğu anketi"ni doldurub qeydiyyatdan keçmək üçün Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən xüsusi qabiliyyət tələb edən ixtisaslara tələbə qəbulu ilə bağlı qabiliyyət imtahanı üçün müəyyən olunan məbləği (30 AZN) şəxsi kabinetlərindəki hesablarına əlavə etməlidirlər. Həmin məbləğ qeydiyyat zamanı bakalavrın "Şəxsi kabinet"inin "Hesab"ından çıxılır.

Anketin bütün bəndləri Azərbaycan dilində, yığcam şəkildə doldurulmalıdır. Anketi doldurmaqla qeydiyyatdan keçən bakalavrlar 2019-cu il aprelin 28-dən 30-dək "Bakalavrın qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edib götürməli və 2019-cu il mayın 1-dən 3-dək vərəqədə göstərilən vaxtda qabiliyyət imtahanında iştirak etməlidirlər.

Bakalavrlar qabiliyyət imtahanında iştirak etmək üçün özləri ilə aşağıdakı sənədləri mütləq gətirməlidirlər:

- *şəxsiyyətini təsdiq edən sənədi;*
- *"Bakalavrın qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni;*
- *dövri mətbuatda, radio və televiziyada, internet KİV-lərdə yayımlanmış jurnalistika janrları üzrə yazılarını (radio və televiziyada yayımlanmış çıxışlarının disk yazılarını) (qovluqda);*
- *təqdim edilən materialların və çıxışların müəllifə məxsus olması ilə bağlı KİV-in məsul işçisi tərəfindən imzalanmış və təşkilatın möhürü ilə təsdiqlənmiş arayışı.*

**Qeyd:** Yuxarıda sadalanan sənədlərdən hər hansı birini gətirməyən bakalavrlar qabiliyyət imtahanına buraxılmırlar.

Qabiliyyət imtahanında hər bir bakalavra təxminən 1 saat (30 dəqiqə imtahan biletinə hazırlaşmaq və 30 dəqiqə biletin suallarını cavablandırmaq üçün) vaxt ayrılır. Hər bir bakalavr bilet çəkməklə Qabiliyyət İmtahanı Komissiyası (QİK) qarşısında cavab verir. Mətbuat materialının təhlili yazılı formada yerinə yetirilir.

HƏR BİR BİLETİN QURULUŞU TƏXMİNƏN AŞAĞIDAKI KİMİDİR:

1. Bakalavrın dövri mətbuatda, radio və televiziyada, internet KİV-lərdə yayımlanmış jurnalistika üzrə yazılarına baxış və onların qiymətləndirilməsi;
2. Şifahi müsahibə;
3. Bakalavrın ona imtahanda təqdim edilən mətbuat materialını təhlil və redaktə etməsi.

İmtahanda hər bir bakalavrın cavabları müvafiq şəkildə protokollaşdırılır.

QABİLİYYƏT İMTAHANININ QISA TƏSVİRİ AŞAĞIDA VERİLİR:

1. QİK üzvləri bakalavrın dövri mətbuatda, radio və televiziyada, internet KİV-lərdə yayımlanmış jurnalistika üzrə yazılarını nəzərdən keçirir, onları təhlil edir və qiymətləndirirlər.

2. QİK üzvləri imtahan verən hər bir bakalavrın ümumi dünyagörüş səviyyəsini, dünyada və ölkəmizdə cərəyan edən hadisələrdən və ictimai-siyasi proseslərdən xəbərdar olub-olmamasını, jurnalistikaya marağını, motivasiyasını, jurnalistika üzrə nəzəri biliklərini, KİV-lərlə tanışlığını, jurnalistikanın cəmiyyətdə rolunu başa düşməsini, jurnalistin peşə etikası qaydalarına bələdliyini və s. müəyyənləşdirmək məqsədi ilə təqdim edilmiş ədəbiyyat (mənbələr) çərçivəsində ona müvafiq suallar verirlər. Müsahibənin gedişində komissiya üzvləri bakalavrın maraq dairəsini, erudisiyasını və ümumi mədəniyyət səviyyəsini, KİV-lərdən xəbərdar olmasını, müasir publisistlərin yaradıcılığı ilə tanışlığını, seçdiyi peşənin xüsusiyyətlərini başa düşməsini, yaradıcı tapşırıqları cəld və orijinal şəkildə həll etmək bacarığını, həmçinin obyektiv reallığın hadisə və təzahürlərini qiymətləndirmədə müstəqil yaradıcı təfəkkür qabiliyyətini aşkara çıxaran əlavə suallar verə bilərlər.

3. Bakalavr ona imtahanda təqdim edilən mətbuat materialını təhlil və redaktə edir.

Bu yazılı tapşırıq Azərbaycan və ya rus dilində verilmiş mətnin təhlilini və redaktə edilməsini nəzərdə tutur. Bakalavr səhvləri tapır və düzəldir, etdiyi düzəlişləri izah edir, mətni redaktə olunmuş formada yenidən yazır. Mətni redaktə edərkən bakalavr ədəbi dili, dil və nitq normalarını bilməsini, müasir dil normalarını pozan orfoqrafik, qrammatik, durğu işarəsi və nitq səhvlərini tapmaq və düzəltmək qabiliyyətini nümayiş etdirməlidir.

**Materialı təhlil və redaktə edərkən bakalavr aşağıdakı məsələləri əhatə etməyə çalışmalıdır:**

*mövzunun açılma dərəcəsi;*

*başlıq və məzmunun uyğunluğu;*

*materialın quruluş və formasına görə janrının müəyyənləşdirilməsi;*

*materialın yazıldığı janrın tələblərinə uyğunluq dərəcəsi;*

*yazının dil və üslub normaları baxımından təhlili;*

*səhvləri aradan qaldırmaqla materialın yenidən işlənilməsi.*

**Qeyd:** Təhlil üçün materiallar tədris bölmələrinə müvafiq olaraq Azərbaycan və rus dillərində təqdim olunur.

Bakalavrın biletin hər bir bəndi üzrə cavabı 5 ballıq şkala üzrə qiymətləndirilir (3 bənd üzrə maksimum bal: 15). Biletin hər bir bəndi üzrə ən azı 3, bilet üzrə ümumilikdə isə 9 və daha çox bal toplamış bakalavrlar imtahandan "məqbul" qiymət almış hesab edilirlər və proqram seçimi zamanı jurnalistika üzrə 44 saylı proqramı seçmək hüququ qazanırlar. Onlar magistraturaya qəbul imtahanının ikinci mərhələsində həmin proqram üzrə imtahan verərək inşa (esse) yazırlar. Bu bakalavrlardan mərhələ üzrə və ümumi müsabiqə şərtini ödəyənlər ixtisaslaşma seçimi zamanı jurnalistika üzrə ixtisaslaşmaları seçə bilərlər.

Ukraynalı deputat:

# Azərbaycanlıların birliyi bizə nümunə olmalıdır



"Bu gün mən Ukrayna - Azərbaycan parlamentlərarası əlaqələr şurasının üzvü kimi Ukrayna azərbaycanlılarının birləşdirici qurultayında iştirak etdim. Məni bu qurultaya Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov və Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədri Rövşən Tağıyev dəvət etmişdi. Və inanın ki, nazir statusunda olan azərbaycanlı məmurun Ukraynaya gəlişi möhtəşəm bir hadisənin gerçəkləşdiyini təsdiqləyirdi".

Azadinform xəbər verir ki, bu sözləri Ukrayna-Azərbaycan parlamentlərarası əlaqələr şurasının üzvü Borislav Bereza Ukrayna Azərbaycanlıları Radasının (UAR) təsis qurultayında çıxışı zamanı deyib.

Borislav Bereza bildirib ki, indiyədək dağınıq şəkildə fəaliyyət göstərən Ukrayna azərbaycanlılarının diaspor təşkilatları daha əvvəl vahid bir qurumda birləşsəydi, öz maraqlarının qorunması və mədəniyyətin inkişafı baxımından mühüm işlər görmüş olardı.

Ukraynalı deputat nəhayət belə bir nümunənin gerçəkləşdirilməsindən məmnun qaldığını gizlətməyib.

O, Ukrayna azərbaycanlılarının ümumi maraqlar naminə bir-birinə güzəştə gedərək, aralarındakı ziddiyyətləri və şəxsi ambisiyaları kənara qoyub birləşmə istiqamətində atdıqları addımı mühüm qərar kimi dəyərləndirib.

"Bu nümunədən bizim hamımız öyrənməliyik. Və ümid edirəm ki, azərbaycanlıların ümumi məqsədlərə nail olmaq üçün vahid qurumda birləşməsi, nümayiş etdirdikləri birlik yaxın vaxtlarda məhz Ukrayna cəmiyyəti üçün trend olacaq. Çünki birləşməsək, bizim Ukraynada maksimum müsbət nəticəyə nail olmağımız mümkün deyil", - deyə ukraynalı deputat bildirib.

Borislav Berezanın sözlərinə görə, o, Ukraynanı ikinci vətənləri sayan bu ölkədəki azərbaycanlıların birləşmə prosesini yaxından izləməyə çox şad olub. Deputat bir daha bu birliyin Ukrayna cəmiyyəti üçün yaxşı nümunə olduğunu qeyd edib:

"Çünki müasir dünyada yalnız gücümüzü birləşdirməklə səmərəli fəaliyyət göstərə və maksimum tez nəticə əldə edə bilərik! Ümid edirəm ki, cəmiyyətimizdə birləşmək istəyi həyata keçiriləcək".

Borislav Bereza Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini də müsbət qiymətləndirib:

- "Yeri gəlmişkən, Azərbaycanda fəaliyyət göstərən Diasporla İş üzrə Dövlət Komitəsi kimi və ya ona oxşar nazirliyin Ukraynada da yaradılması çox faydalı olardı. Bu qurum bütün dünyadakı Azərbaycan diaspor təşkilatlarının təkcə qarşılıqlı əlaqəsinin qurulması ilə məşğul deyil, həm də xalqın mədəni kökünü qoruya bilir, birləşməyi təmin edir. Eyni zamanda faktiki olaraq bütün dünyaya yayılmış diasporların əsasında Azərbaycan üçün qlobal dəstəyi yaradır. Ukraynaya da buna bənzər bir təsir rıçaqı lazımdır. Ukraynalıların da dünyaya səpələndiyi əslində heç kimə sirr deyil. Ona görə də belə bir rəsmi strukturun Ukraynada da fəaliyyətə başlamasını gözləmək qalır".

# Ermənistanda etiraz aksiyası zamanı silahlı qarşıdurma olub



**Ermənistanın Armavir vilayətinin Zartonk kəndinin sakinləri sosial problemlər səbəbindən etiraz aksiyası keçiriblər.**

**AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, narazı kütlə icra başçısının istefası tələbi ilə kənddən keçən Yerevan-Gümrü dəmir yolunu bağlayıblar. Aksiya iştirakçıları bildiriblər ki, bir il bundan əvvəl inqilab yolu ilə hakimiyyətə gələn Nikol Paşinyan Ermənistanda bütün problemlərin həll ediləcəyini demişdi. Lakin bundan əvvəlki dövrlərdə olduğu kimi, bu gün də insanlar sosial problemlərdən əziyyət çəkirlər. Ötən bir il müddətində Paşinyan və komandası problemlərin həlli istiqamətində ciddi addımlar atmayıb.**

**Aksiya zamanı kəndlilər arasında atışma baş verib. Bir sakin ov tüfəngindən atəş açaraq digər iki ermənini yaralayıb. Daha üç nəfər müxtəlif dərəcəli xəsarətlər alıb.**

*Elmar Məmmədyarov:*

# Moskva görüşü faydalı və substantiv keçdi




Aprelin 15-də Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Moskva görüşü faydalı və substantiv keçdi. AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan jurnalistlərinə müsahibəsində xarici işlər naziri Elmar Məmmədyarov söyləyib.

Nazir qeyd edib ki, əvvəlcə Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirləri üçtərəfli görüş keçirdilər. "Çox faydalı görüş oldu. İndiyə qədər danışıqlarda irəliləyişə imkan verməyən məsələləri konkret şəkildə müzakirə etdik. Tam şəkildə irəliləyişin olmasını deyə bilmərəm. Ancaq Ermənistan tərəfi ilə bəzi problem yaradan məqamları ətraflı və daha dərindən başa düşə bildik. Məsələn, Ermənistan tərəfi statusla və təhlükəsizliklə bağlı məsələ qaldırdı. Biz isə qoşunların işğal altında olan torpaqlardan çıxarılması və məcburi köçkünlərin geri qaytarılması məsələsini qaldırdıq. Bu dörd fikir əsasında çox dərin müzakirələr apardıq", - deyə nazir bildirib.

Elmar Məmmədyarov vurğulayıb ki, görüşdə bəzi təkliflər səsləndirilib: "İndidən bu təklifləri açıqlamaq istəmirəm. Bu, həm Rusiya, həm digər həmsədrlər, həm də Azərbaycan və Ermənistan tərəfinin təklifləridir. Biz bu istiqamətdə işimizi davam etdirəcəyik".

Nazir görüşün yekun bəyanatında qeyd olunduğu kimi, Azərbaycan və Ermənistan jurnalistlərinin Bakıya, Yerevana və Dağlıq Qarabağa səfərlərinin təşkili məsələsinə toxunub: "Bu, çox maraqlı fikirdir ki, erməni və azərbaycanlı jurnalistlər Yerevana, Bakıya, Dağlıq Qarabağa səfərlər etsinlər. Bundan əlavə, cəbhə bölgəsində kənd təsərrüfatı ilə məşğul olan əhalinin təhlükəsizliyinin təmin olunması barədə razılığa gəldik. Ümid edirəm ki, Ermənistan tərəfi buna hörmətlə yanaşacaq. Sakinlərə öz torpaqlarında işləməyə imkan yaradacaqlar".

# Varşava Universitetində Azərbaycan tarixi tədris edilir

"Asiya və Afrikada ənənələr və müasirlik: birgəyaşayış və ya konflikt?" mövzusunda şərqşünasların V Ümumpolşa konfransında Azərbaycan tarixinə dair məruzələr dinlənilib.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutundan AZƏRTAC-a bildirilib ki, Polşadakı Azərbaycanşünaslıq Mərkəzinin rəhbəri Nərgiz Axundova konfransda "Şərqdə diplomatik missiyalar (Hülakülər, Qaraqoyunlu və Səfəvilər dövrü)" mövzusunda məruzə ilə çıxış edib.

Daha sonra Varşavanın Lazarski Universitetində "Azərbaycan - Qafqazın incisi" adlı tədbir keçirilib. Tədbirdə Azərbaycanşünaslıq Mərkəzi universitetin tələbə və müəllim heyətini Azərbaycan xalqının tarixi, mədəniyyəti və adət-ənənələri ilə tanış edib. Mərkəzin rəhbəri Nərgiz Axundova "Azərbaycan: dünən və bu gün" adlı təqdimat edərək, xalqımızın tarixi kökləri, abidələrimiz, müasir Azərbaycanın inkişafı və onun beynəlxalq arenadakı yerindən danışıb. Lazarski Universitetinin tələbələri isə Bakı şəhərinin görməli yerləri barədə qısametrajlı film təqdim ediblər.




Azərbaycanşünaslıq Mərkəzinin rəhbərliyi ilə Varşava Universitetində Azərbaycan tarixi 4 istiqamətdə (qədimdən Səlcuqlar dövrünədək, orta əsrlər tarixi, Azərbaycanın çar və sovet Rusiyası tərəfindən işğalı və Azərbaycan Respublikasının xarici siyasəti) tədris edilir. Polyak və xarici tələbələr tariximizə böyük maraq göstərirlər. Tələbələr Azərbaycan tarixi barədə təqdimatlar hazırlayır və məqalələr yazırlar. Bundan əlavə, Varşava Universitetində Azərbaycan mədəniyyətinə dair dərslər keçirilir və Azərbaycan dili tədris olunur.

Qeyd edək ki, Tarix İnstitutu dünyanın müxtəlif ölkələrində Azərbaycanşünaslıq mərkəzləri yaradır. Polşadakı Azərbaycanşünaslıq Mərkəzi 2018-ci ildə fəaliyyətə başlayıb. Yaxın zamanlarda Misirin Qahirə Universitetində də Azərbaycanşünaslıq Mərkəzinin yaradılacağı gözlənilir.

# ABŞ son 10 ildə neft hasilatını 2 dəfə artırıb



Son 10 ildə Birləşmiş Ştatlarda sutkalıq xam neft istehsalı 2 dəfə çoxalıb.

AZƏRTAC xəbər verir ki, 2018-ci ildə ABŞ-ın gündəlik neft hasilatı orta hesabla 10,96 milyon barrel təşkil edib. Bu da son 10 ildə 119 faiz artım deməkdir. Ötən ilin noyabrında sutkalıq neft istehsalını 11,7 milyon barrelə çatdıran ABŞ dünya lideri olub.

ABŞ-ın Enerji İnformasiya Administrasiyasının (EIA) məlumatına görə, 2008-ci ildə ABŞ-ın neft istehsalı əhəmiyyətli dərəcədə azalıb və 1946-cı ildən sonrakı dövrdə ən aşağı səviyyəyə enib. Ölkənin gündəlik neft hasilatı 2008-ci ildə 5 milyon barreldən keçən il 10,96 milyon barrel səviyyəsinə yüksələrək 119 faiz artım nümayiş etdirib.

Neft sektorunda hidravlik və üfüqi qazma kimi yeni istehsal üsullarının geniş yayıldığı 2008-ci ildə ABŞ-da şist neft hasilatı dövrü başladı. Bundan sonrakı illərdə isə istehsal sürətlə artdı. ABŞ-ın sutkalıq neft hasilatı 2010-cu ildə orta hesabla 5,48 milyon barrel, 2012-ci ildə 6,5 milyon barrel, 2013-cü ildə 7,47 milyon barrel, 2014-cü ildə 8,76 milyon barrel, 2015-ci ildə isə 9,43 milyon barrelə çatdı.

ABŞ-ın neft sənayesi 2014-cü ilin iyununda ucuzlaşmağa başlayan neftin qiyməti fonunda 2 il çətinlik çəkdi. Ölkədə neft istehsalı azalmağa başlandı və 2016-cı ildə gündəlik hasilat 8,83 milyon barrelə düşdü. "Qara qızıl"ın qiymətinin kəskin ucuzlaşması ilə əlaqədar 2015-2016-cı illərdə ABŞ-da 300-dən çox neft şirkəti iflas etdiyini açıqladı, sektorda 250 min işçi ixtisar olundu və 250 milyard dollarlıq sərmayə nəticəsiz qaldı.

Amerika şirkətləri neftin aşağı qiymətləri fonunda bazarda aktiv qalmağa çalışdı, əsasən daha səmərəli üsullara yönələrək istehsal xərclərini azaltdı və "dərin dəniz" kimi baha başa gələn layihələrdən çəkindilər. Bundan sonra IT, süni intellekt və bulud texnologiyası kimi innovasiyalardan istifadə etməyə başlayan ABŞ-ın neft sənayesi quyularda istehsal artımına nail oldu. Bu yeniliklər nəticəsində ABŞ şirkətləri neftin hasilat xərclərini 65-75 dollar/barreldən 45-55 dollar/barrelə saldılar.

ABŞ-da gündəlik neft istehsalı 2016-cı ildə orta hesabla 8,83 milyon barrel səviyyəsinə çatdı, 2017-ci ildə isə 9,35 milyon barrelə qalxdı. Birləşmiş Ştatların neft hasilatı 2018-ci ildə 10,96 milyon barrel çataraq ölkə tarixində ən yüksək səviyyəni - 9,64 milyon barrelə ötərək rekorda imza atdı.

Aylıq istehsal məlumatlarına görə, 2018-ci ildə ABŞ dünyanın ən böyük iki xam neft istehsalçısı olan Rusiya və Səudiyyə Ərəbistanını geridə qoyaraq neft istehsalına görə liderliyə yüksəldi. Aylıq göstəricilərə görə, ABŞ-ın gündəlik neft istehsalı keçən ilin oktyabrında 11,2 milyon barrelə çataraq Səudiyyə Ərəbistanını geridə qoydu və dünya miqyasında ikinci yeri tutdu. Bir ay sonra, ötən ilin noyabrında isə ABŞ sutkada orta hesabla 11,7 milyon barrel neft hasil edərək Rusiyanı da qabaqladı və dünya lideri oldu.

Ötən hesabat həftəsində ABŞ-ın neft hasilatı əvvəlki həftə ilə müqayisədə 2 min barrel artaraq gündəlik 12,2 milyon barrel səviyyəsində qalıb. Ölkədə gündəlik neftin istehsalı bu ilin yanvarında 11,9 milyon barrelə, fevralda 12 milyon barrelə, martda isə 12,2 milyon barrelə yüksəlib.

EIA-nın proqnozuna görə, ABŞ-ın neft hasilatı bu il sutkalıq orta hesabla 12,4 milyon barrel, gələn il isə 13,1 milyon barrel təşkil edəcək.

## İsveçrə portalı Azərbaycanın 10 milyonuncu sakinindən yazıb




İsveçrənin "www.zeitung.ch" portalında "Azərbaycan sakinlərinin sayı 10 milyon nəfərə çatıb" sərlövhəli məqalə verilib.

AZƏRTAC xəbər verir ki, məqalədə bu il aprelin 6-da dünyaya göz açan körpə ilə Azərbaycan əhalisinin sayının 10 milyon nəfərə çatdığı qeyd edilib. Məqalədə, həmçinin son əsrlərdə Azərbaycandakı demoqrafik inkişafa nəzər salınıb. Qeyd edilib ki, 1897-ci ildə Azərbaycanda əhalinin sayı 1,807 milyon nəfər, Birinci Dünya müharibəsindən əvvəl isə (1913-cü il) 2,339 milyon nəfər olub. Dünya müharibəsi, azərbaycanlılara qarşı soyqırımı, xarici müdaxilələr ölkə əhalisinin sayına mənfi təsir göstərib və 1920-ci ildə əhalinin sayı 1,952 milyon nəfərə düşüb. Məqalədə, həmçinin 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlının Azərbaycana deportasiyası, Ermənistanın Azərbaycana hərbi müdaxiləsi, həmçinin 1988-ci ildə bu ölkədəki azərbaycanlıların son nəfərədək qaçqına çevrilməsi nəticəsində Azərbaycanda demoqrafik mənzərənin dəyişdiyi diqqətə çatdırılıb.

Xüsusilə qeyd edilir ki, 1999-cu ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi və 2004-cü ildə "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"nın qəbulu ölkədə əhalinin artımına müsbət təsir göstərib. Bu addımlar nəticəsində ölkə əhalisinin sayı 2003-2018-ci illər ərzində 1,8 milyon nəfər artıb.

Sonda qeyd edilir ki, Azərbaycan əhalisinin sayının sürətli artımı hökumətin düzgün demoqrafik siyasətinin və ölkənin davamlı iqtisadi inkişafının nəticəsidir. Sosial və iqtisadi sahələrdəki geniş islahatlar əhalinin maddi rifah halının yüksəldilməsinə hədəflənib və bununla da Azərbaycan BMT-nin global davamlı inkişaf konsepsiyasına öz töhfəsini verir.

## Almaniyada kəskin rəqabət gedir




Almaniyaya boru xətti ilə Hollandiya, Norveç və Rusiyadan qaz tədarük edən "Wintershall" şirkəti "Şimal axını-2" qaz kəmərinin tikintisində də iştirak edir. Bu səbəbdən həmin şirkət maye qaz tədarükçülərini öz rəqibi kimi görmək istəmir.

AZƏRTAC xəbər verir ki, bu şirkət uzun müddətdir ki, təbii maye qaz əleyhinə mətbuatda dərc olunan məqalələrə gizli sponsorluq edir. Bu yazılarda həmin yanacaq növünü qaralayan və əhəmiyyətini azaldan iddialar yer alır.

İndi isə "promotion" taktikası ilə təqdim edilən qazabənzər və mavi yanacağın maye formalarının ikisinin də birlikdə istifadə olunacağı ilə bağlı ideya ortaya atılıb. Bu günlərdə yayılmış sənəddə bildirilir ki, ölkənin qazla təchizatı həm boru kəmərləri, həm də dənizdən tankerlər vasitəsilə həyata keçirilə bilər. Şirkət yazır ki, boru kəməri və ya maye qaz terminallarından hər hansı əlavə idxal imkanlarını alqışlayır. Eyni zamanda, "Wintershall" özünü maye qazla bağlı eyham vurmaqdan da saxlaya bilməyərək əlavə edib ki, mövcud olan idxal terminallarının aşağı yükləmə həcmi ilə bağlı maye qaz layihələrinə əlavə sərmayələr qoyulacağından şübhələnir.

Bütün hallarda, maye qazın Almaniyanın qaz bazarında özünə tam yer tapacağını zaman göstərəcək.

## Sinqapurda hava taksisi sınaqdan keçiriləcək



Sinqapur Mülki Aviasiya İdarəsi (CAAS) 2019-cu ildə hava taksisini sınaqdan keçirməyi planlaşdırır.

AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, məlumata görə, hava taksisi avtomobil ölçüsündə kiçik uçan aparat formasında hazırlanıb. Hava nəqliyyatı saatda 160 km-dən çox məsafə qət edə biləcək.

Uçuş və yerə enmə vertikal vəziyyətdə həyata keçiriləcək. İdarəetmə məsafədən və ya tamamilə avtonom həyata keçirilir.

BİRİNCİ RÜBÜN YEKUNLARI:

# 4 kitab, 143 elmi məqalə, 26 konfrans materialı



AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin genişləndirilmiş iclası 2019-cu ilin birinci rübünün yekunlarına həsr olunub.

Tədbirdə Bölmənin sədri, akademik İsmayıl Hacıyev qarşıya qoyulan vəzifələr, əldə olunan uğurlu nəticələr və çatışmazlıqlardan söz açıb.

Sonra Elmi-təşkilat şöbəsinin müdiri, aqrar elmləri üzrə fəlsəfə doktoru Orxan Bağırov bölmənin elmi müəssisələrində bu ilin birinci rübündə aparılan elmi-tədqiqat işləri barədə məlumat verib. Bildirib ki, 2019-cu ilin birinci rübündə Naxçıvan Bölməsi Rəyasət Heyətinin 6 iclası keçirilib. İclaslarda doktorant və dissertantların qəbulu, attestasiyası, dissertasiya mövzularının, fərdi iş planlarının təsdiqi, beynəlxalq konfransın keçirilməsinə hazırlıq, müxtəlif tarixi günlərin və bayramların keçirilməsi, Gənc Alim və Mütəxəssislər Şurasının fəaliyyəti, elmi məruzələrin dinlənilməsi, elmi işçilərin Vahid Tarif Cədvəli üzrə vəzifə və dərəcələrində dəyişiklik edilməsi və çatışmazlıqların aradan qaldırılması kimi məsələlər müzakirə edilib, Rəyasət Heyətinin müxtəlif məsələlərlə bağlı 3 sərəncam və 43 qərarı qəbul edilib.

Qeyd olunub ki, bu ilin birinci rübündə əməkdaşların 1 monoqrafiyası, 4 kitabı, 1 metodik vəsaiti, 143 elmi məqaləsi, 26 konfrans materialı olmaqla 176 elmi əsəri çap olunub, həmçinin 2 buklet və bir xəritə tərtib edilib. Məqalələrdən 29-u, konfrans materiallarından isə 14-ü xaricdə nəşr olunub. Məqalələrin 3-ü Tomson Retures olmaqla 11-i impakt faktorlu jurnallarda çapdan çıxıb.



Bildirilib ki, Bölmə üzrə 1 respublika səviyyəli qrant layihəsinin icrası başa çatıb, 2-si beynəlxalq və 2-si respublika səviyyəli olmaqla 4 qrant layihəsinin icrası isə hazırda davam etdirilir.

Bu dövrdə Bölmədə elmlər doktoru hazırlığı üzrə doktoranturaya 3, fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya 14, elmlər doktoru hazırlığı üzrə dissertanturaya isə 2 ixtisas üzrə qəbul keçirilib, doktorant və dissertantların mövzuları, rəhbər və məsləhətçiləri təsdiq edilib. Hazırda bölmədə 15 doktorant (elmlər doktoru hazırlığı üzrə), 40 dissertant (30 fəlsəfə doktoru hazırlığı üzrə, 10 elmlər doktoru hazırlığı üzrə) müvafiq dissertasiyalar üzrə tədqiqatları davam etdirirlər.

Diqqətə çatdırılıb ki, əməkdaşlar Türkiyə, İran, Qazaxıstan, Rusiya, ABŞ və Fransanın elm və təhsil müəssisələri ilə səmərəli əməkdaşlıq ediblər.

İlin birinci rübündə akademik İsmayıl Hacıyev və müxbir üzv Əbülfəz Quliyev Türkiyə Elmlər Akademiyası və Qırğızıstan İssık-Kul Dövlət Universiteti tərəfindən "Manas"ın mirasçıları: Türk dünyası mədəniyyətinə xidmət", həmçinin akademik İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 8 fevral 2019-cu il tarixli Sərəncamı ilə "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" kitabına görə Naxçıvan Muxtar Respublika mükafatlarına layiq görülüb. Akademik Tariyel Talıbov Naxçıvan Muxtar Respublikasında elm sahəsində səmərəli fəaliyyətinə görə "Naxçıvan Muxtar Respublikası xidmətlərə görə" nişanı, Ümumdünya Təbiəti Mühafizə Fondunun və Bölmənin Fəxri Fərmanları ilə təltif olunub. Kimya üzrə fəlsəfə doktoru Fizzə Məmmədova Azərbaycan Respublikasının "Tərəqqi" medalı ilə təltif edilib, Rusiyanın "Akademik" Elmi-nəşriyyat Mərkəzi və "İvanov Manacment Group" Elm-təhsil holdinqinə rəyçi seçilib. Biologiya üzrə fəlsəfə doktoru Əfruz Nəsirova Azərbaycan Milli Elmlər Akademiyasının elan etdiyi "Gənc qadınlar elmdə" müsabiqəsində III yerə layiq görülüb.

İclasda Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli və Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov çıxış edərək bir sıra təkliflər irəli sürüblər.

Tədbirə yekun vuran Bölmə sədri elmi-tədqiqat müəssisələrinin qarşısında duran vəzifələrlə bağlı direktorlara müvafiq tapşırıqlar verib.

**Nərgiz Nəcəfli**

*Qarabağ qazisi:*

# Mənim üçün ən böyük mükafat işğaldan azad edilmiş ərazilərimizdir

***Əhliyyət Mehdiyev 2016-cı ilin aprel döyüşləri zamanı işğal altında olan bir neçə yüksəkliyin ələ keçirilməsində iştirak edib. Elə həmin döyüşlərdə də yaralanıb. II qrup Qarabağ qazisi, ehtiyatda olan baş leytenant Əhliyyət Mehdiyevlə hazırda müalicə olunduğu Respublika Klinik Xəstəxanasında görüşdük. İlk sualımız da onun səhhəti ilə bağlı oldu. O, sualımızı özünəməxsus şəkildə cavablandırdı:***

***- Sağ olsun həkimlərimiz. Onların sayəsində səhhətimdəki problemlər aradan qaldırılır. Təki Vətən sağ olsun...***



***- 2016-cı ilin aprel zəfəri yaddaşınıza necə həkk olunub?***

- Azərbaycan Ordusunun qəhrəmanlıq salnaməsi kimi. Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Çünki ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Həmin döyüşlər həm də ordumuzun mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirdi. Üstəlik, bu döyüşlər xalqımızın birliyini, həmrəyliyini bir daha göstərdi. Onu da deyim ki, mənim fikrimcə, aprel döyüşlərindən sonra sanki dünyanın aparıcı dövlətlərinin ölkəmizə olan siyasi baxışları dəyişdi. Yəni onlar Azərbaycanın heç vaxt işğalla barışmayacağını, nəyin bahasına olursa-olsun, ərazi bütövlüyünü bərpa edəcəyini birmənalı şəkildə qəbul etdilər. Halbuki aprel döyüşlərinə qədər bizə işğalla barışan ölkə kimi baxırdılar.

***- Həmin döyüşlərdən bir qədər ətraflı söz açmağınızı xahiş edirik.***

- Düşmən cəbhə bölgəsində təxribatlar törətməkdə davam edirdi. Onlar hətta bizim postları ələ keçirmək niyyətində idilər. Odur ki, komandanlıq adekvat cavab vermək və düşmənə əks zərbə vurmaq əmrini verdi. Yəni biz düşmən hücumunun qarşısını almaq məqsədi ilə döyüşə girdik. Bizim döyüşçülər də necə deyərlər, komandanlığın verdiyi döyüş əmrini Azərbaycan hərbçisinə layiq şəkildə yerinə yetirdilər.

Yəqin bilirsiniz, bir zamanlar ermənilər özlərinin "Ohanyan xətti" ilə fəxr edirdilər. Amma biz onların "keçilməz" adlandırdıqları həmin xətti bir anda keçdik. Bununla da ermənilərin öz ordusu haqqında uydurduqları mifləri darmadağın etdik. Bilirsinizmi, ermənilər öz imkanlarını həddindən artıq şişirdirlər. Bu mənada, zəfərimiz işğalçı dövlətin davam etməkdə olan hərbi-siyasi təxribatlarına zəhmli bir cavab olmaqla yanaşı, həm də onların yalançı qalib ədasına son qoydu.

***- Aprel döyüşlərinə görə hansı mükafata layiq görülmüsünüzmü?***

- Ordumuzun yubiley medalları ilə təltif olunmuş bir zabit kimi deyə bilərəm ki, belə döyüşlərdə hansısa mükafat o qədər də önəmli deyil. Mənim və digər qazilər üçün həmin döyüşlərdə ən böyük mükafat işğaldan azad edilmiş ərazilərimizdir.

***- Bəlkə söhbətimizi aprel şəhidləri ilə davam etdirək?***

- Aprel döyüşlərində bölüyümüzün öndə gedən komandiri, polkovnik-leytenant Murad Mirzəyev, qərargah rəisimiz, mayor Samid İmanov, kapitan Mühit Orucov, eləcə də bizimlə yanaşı sağ cinahda irəliləyən polkovnik-leytenant Raquf Orucov, kəşfiyyat rəisimiz, polkovnik Vüqar Yusifov da şəhid oldular. Yeri gəlmişkən, bu döyüşlərdə biz komandirlərimizdən "İrəli" deyil, yalnız "Arxamca" əmrini eşidirdik. Bax, bu çox mühüm amildir. Çünki komandiri öndə gedən əsgərin qələbəyə inamı daha çox olur. Döyüşçülərimizdən biri də geri çəkilmədi. Bizdən fərqli olaraq, düşmənin əsgərləri postları qoyub qaçdılar. Burada Mustafa Kamal Atatürkün "Komandir birliyin beyni, əsas hərəkətverici qüvvəsidir" sözlərini də xatırlatmaq yerinə düşərdi.

Heyif ki, mən onların və digərlərinin simasında neçə-neçə dost, qardaş itirdim. Heç unuda bilmirəm onları ... Mənimlə bərabər irəliləyən qazaxlı balası Elvin Namazovdan da söz açmaq istəyirəm. Elvinlə hərbi məktəbi birgə oxumuşduq. Xüsusi təyinatlı kursu birgə keçmişdik, bir bölmədə qulluq edirdik. Bir yerdə dəfələrlə düşmən arxasında əməliyyatlarda olmuşduq. Elvin təzə evlənmişdi. Aprel döyüşləri öncəsi mənə demişdi ki, yaxın vaxtlarda dünyaya gələcək övladını da Xüsusi Təyinatlı Qüvvələrin tərkibində görmək istəyir. Amma onun bu arzusu gerçəkləşmədi. Belə ki, həyat yoldaşı Elvinin şəhid olması xəbərini eşidəndən sonra güclü sarsıntı keçirdi və bətnindəki yadigarı itirdi. Elə bu kimi səbəblərdən mən 2016-cı ilin aprel günlərini həm qürur, həm də hüznlə yada salıram.

***- Şəhidlərimizin ailələrinə, eləcə də yaralılarımıza, əsgər və zabitlərimizə göstərilən dövlət qayğısı haqqında nələr demək istərdiniz?***

- Ümumiyyətlə, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən oğullarımızın ailələri, yaralanmış əsgər və zabitlərimiz dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Bu, danılmaz faktdır. Dünyada çox az dövlət tapılar ki, müharibə iştirakçılarına, sağlamlıqlarını itirmiş hərbi qulluqçulara, şəhid ailələrinə bizim ölkəmizdəki kimi qayğı göstərilsin, onlara mənzil və minik avtomobilləri hədiyyə olunsun və müxtəlif güzəştlər edilsin. Elə mən özüm... Ordu sıralarından tərxis olunandan sonra Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində işlə təmin olunmuşam. Müalicəmlə bağlı bütün xərclərimi də dövlətimiz qarşılayır. Üstəlik, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qızım Sunayın səhhətində yaranmış problemlərin çözülməsi üçün sözün həqiqi mənasında, əlindən gələni əsirgəmir. Onu da qeyd edim ki, Mehriban xanım Əliyeva hərbçilərlə keçirdiyi görüşdə bizi əmin etdi ki, hər bir problemin həllində əlindən gələn köməyi əsirgəməyəcək. Biz bu köməyi, diqqət və qayğını gündəlik həyatımızda görür, hiss edirik.



***- Siz bir hərbçi kimi gələcəkdə Azərbaycan Ordusundan nələr gözləyirsiniz?***

- Şübhəsiz, yeni qələbələr, yeni zəfərlər... Aprel əhəmiyyətli qələbədir, amma əsas zəfərlərimiz hələ irəlidədir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də hərbçilərlə görüşdə bir daha bəyan edib ki, ordumuz üçün nə lazımdırsa edirik və edəcəyik. Bu mənada əgər qarşıda aprel döyüşlərinə bənzər növbəti döyüş baş versə, Ermənistan tarixinin ən böyük fəlakətini yaşayacaq.

***- Belə məlum olur ki, artıq Ali Baş Komandanın verəcəyi növbəti döyüş əmrinə hazırsınız...***

- Bəli. Aprel döyüşlərində yaralanmağıma baxmayaraq, işğal altında olan torpaqlarımızın azad edilməsi və bayrağımızın həmin ərazilərdə dalğalanması üçün döyüşlərə həmişə hazıram.

***- Eşitdiyimə görə, siz də döyüş dostlarınız arasında "Fred" adı ilə tanınırsınız...***

- Bu adı mənə Qarabağ döyüşlərinin ilk illərində böyük qəhrəmanlıq göstərmiş Milli Qəhrəman Fred Asifin həyat yolunu yaxşı bildiyimə, onu özümə ideal seçdiyimə görə veriblər. Əhliyyət adını isə atam seçib. Qarabağın tarixinə dərindən bələd olan atam ötən əsrlərdə Qaçaq Nəbinin dəstəsində Əhliyyət qardaşlarının Qarabağı necə qorumasından xəbərdar olub. Elə bu səbəbdən də həmin adı mənə layiq bilib.

***- Döyüş yolunuz barədə kitab yazmaq fikriniz varmı?***

- Var, amma indi yox. İnşallah, torpaqlarımız erməni işğalından tamamilə azad olunandan sonra eşitdiklərim, gördüklərim əsasında bir kitab ərsəyə gətirmək niyyətindəyəm.

**Qvami Məhəbbətoğlu, "İki sahil"**

*Sahibkarlığa dövlət qayğısının parlaq təzahürü:*

# Son bir ildə 1009 sahibkara 132,6 milyon manat güzəştli kredit verilib



Azərbaycanda həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların əsas prioritetlərindən biri kiçik və orta sahibkarlığın (KOS) daha da inkişaf etdirilməsidir. Son illər bu sahənin inkişafı üçün mühüm addımlar atılır. Məhz bunun da nəticəsində kiçik və orta sahibkarlar tərəfindən yaradılan dəyərin ölkə iqtisadiyyatında payı gündən-günə çoxalır. Uğurla reallaşdırılan dövlət proqramları bu sahənin inkişafına ciddi təkan verib. Bu Dövlət proqramları çərçivəsində iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində mühüm tədbirlər həyata keçirilib, sahibkarlara dövlət maliyyə köməyi sistemi formalaşdırılıb.

Sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılır, sahibkarlar üçün vergi yükünün azaldılması istiqamətində dövlət səviyyəsində mühüm işlər görülür. Sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, yeni dəstək mexanizmləri tətbiq olunur.

Ölkə başçısının təsdiq etdiyi "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" KOS-un dövlət tərəfindən təşviqi və dəstəklənməsini xarakterizə edən əsas faktorlardan biridir. Dövlətimizin başçısının "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 25 dekabr 2018 tarixli Fərmanı respublikamızda sahibkarlığın inkişafı istiqamətində reallaşdırılan islahatların davamı olmaqla özəl bölmənin, xüsusilə kiçik və orta sahibkarlığın inkişafında, sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulmasının daha asan həyata keçirilməsində, bunun üçün tələb olunan vaxt və maliyyə xərclərinin optimallaşdırılmasında xüsusi əhəmiyyət kəsb edir.

Kiçik və orta sahibkarların rolunun və rəqabət qabiliyyətinin artırılması, onların maraqlarının qorunması və problemlərinin həll edilməsi, iş adamlarına vahid məkan prinsipi ilə xidmətlərin göstərilməsi, dövlət və özəl qurumların bu sahədəki fəaliyyətinin əlaqələndirilməsi məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) fəaliyyətə başlayıb. Sahibkarlığın İnkişafı Fondunun xətti ilə son bir ildə 1009 sahibkara 132,6 mln. manat, o cümlədən 907 kiçik və orta biznes sahibinə 19,2 mln. manat güzəştli kreditlər verilib. Bu isə minlərlə yeni iş yerinin açılmasına şərait yaradıb. Sahibkarlığın inkişafı üçün mütəmadi tədbirlər həyata keçirilməkdədir. Bu məqsədlə qanunvericilik daha da təkmilləşdirilib. Məsələn, Vergi Məcəlləsinə edilmiş və bu ilin əvvəlindən qüvvəyə minmiş dəyişikliklərə əsasən, KOB-lara mənfəət vergisinin ödənilməsində 75 faiz güzəşt edilib, onlar həmçinin əmlak vergisinin ödənilməsindən azad ediliblər. Bundan başqa, KOBİA-nın təklifləri əsasında "Kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanun layihəsi, KOB-lara müxtəlif dəstək tədbirlərinin göstərilməsini nəzərdə tutan normativ hüquqi aktların layihələri hazırlanıb. Həmçinin KOB-ların kommunal xidmətlərə qoşulma prosedurları sadələşdirilib, dövlət satınalmaları haqqında qanunvericiliyə mütərəqqi dəyişikliklər edilib.

Prezident İlham Əliyevin 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanına əsasən, sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması sahibkarlığa dövlət qayğısının parlaq təzahürüdür.

**Zahid Rza,**
***"İki sahil"***

*Ekspert:* **Manat və dollar krediti faizlərində azalmalar mümkündür**

**Etiraf etməliyik ki, Azərbaycanda bu gün bankların verdiyi kreditlərin faizləri kifayət qədər yüksəkdir. Həm istehlak, həm də ki, biznes kreditləri üzrə faizlərin yüksək olması nəticə etibarilə problemli kreditlərin həcminə təsir göstərir. Vətəndaşlar daha yüksək faizlə kredit almaq məcburiyyətində qalırlar.**

Belə ki, Maliyyə Bazarlarına Nəzarət Palatası Azərbaycanda kreditlər üzrə orta faiz dərəcəsini azaltmağı təklif edir. Təklif isə hələ ki, müzakirə mərhələsindədir.

Maliyyə Bazarlarına Nəzarət Palatasının kredit faizləri ilə bağlı təklifini dəyərləndirən iqtisadçı ekspert Vüqar Bayramov qəzetimizə açıqlamasında söylədi ki, bank faizlərinin azaldılması hazırda gündəmdə duran ən vacib məsələlərdən biridir.



Ekspertin sözlərinə görə, Azərbaycanda kommersiya banklarının kredit faizləri ilə depozit faizləri arasında kəskin fərq var: "Belə ki, kommersiya bankları orta hesabla depozitləri manatla 7 faizlə, xarici valyuta ilə 1 və daha aşağı faizlə cəlb edir, ancaq manatla kreditləri 30 faizlə, xarici valyuta ilə kreditləri isə 12-16 faizlə təklif edirlər. Bu da kreditlərlə bank faizləri arasında kəskin fərqdən xəbər verir. Mövcud statistikaya diqqət yetirsək Azərbaycanda kredit portfelinin həcmi 12 milyard manatdan bir az artıq, depozit portfeli isə 8 milyard manatdır. Bu isə o deməkdir ki, depozit portfeli kredit portfelinin 65 faizini təşkil edir. Yəni, hər 100 manatın 65 manatı məhz depozit hesabına verilir. Praktiki olaraq banklar bir vətəndaşdan vəsaiti cəlb edib, bəzi hallarda digər vətəndaşa 5-6 dəfə baha qiymətə təklif edir. Bu baxımdan faizlərin tənzimlənməsi çox vacibdir".

V.Bayramov hesab edir ki, bank sektorunda rəqabətin gücləndirilərək faizlərin tənzimlənməsi daha məqsədəuyğun olardı: "Bu, strateji bir yanaşmadır və Palata həm də bank sektorundakı rəqabəti gücləndirməlidir. Bununla da faizlərin strateji dövrdə daha çox azalmasına nail olmaq mümkün olacaq. Kredit faizləri, o cümlədən komisyon haqları və bank xidmətlərinə maksimum həddin müəyyənləşdirilməsi səlahiyyətləri Palataya kredit faizlərini tənzimləməyə imkan verir. Əgər bank sektorunda rəqabətin gücləndirilməsi, bankların likvidliyinin artırılması və sağlamlaşdırılması, idarəetməsinin formalaşdırılması istiqamətində fəaliyyətlər gücləndirilənərsə, bu, praktiki olaraq kredit faizlərinin tənzimlənməsinə imkan verəcək. Manat və dollar krediti faizlərində bu şərtlər daxilində azalmalar mümkündür".

Ekspertin sözlərinə görə, banklar hazırda daha çox gəlir əldə etməkdə və yüksək faizli kreditləşməyə meyilli olduğunu nəzərə alsaq, faizlərdə azalmalar qısa zamanda olmayacaq: "Kredit faizlərində bu ilin sonuna doğru, 2020-ci ildə azalmalar müşahidə ediləcək. Orta hesabla həm manat, həm də dollar kreditlərində 3 faizə yaxın azalma olacağı gözlənilir. Bütün hallarda Palatanın mövqeyi çox vacibdir. Palata yalnız inzibati deyil, bu sektorda rəqabəti gücləndirməklə də faizlərin aşağı düşməsinə çalışmalıdır. Ancaq ümumilikdə mövcud səlahiyyətlərin və bank sektorunda mənfəətin olmasını nəzərə alsaq, azalma mümkündür".

**Cavid Əkbərov,**
***"İki sahil"***

# Heydər Əliyev və Azərbaycan musiqisi

**Müasir Azərbaycan dövlətçiliyinin banisi, ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövr ölkə həyatının bütün sahələrində olduğu kimi, mədəni inkişafında da yeni bir mərhələnin başlanğıcı oldu. Bu illərdə ulu öndər Heydər Əliyev incəsənətin tərəqqisi və mədəniyyətinin dünyada tanınması üçün müstəsna xidmətlər göstərmişdir. Belə ki, incəsənətin bir qolu olan musiqi də onun diqqətindən kənar qalmamışdır. Hələ 1969-1982-ci illərdə SSRI-nin digər respublikaları ilə müqayisədə böyük teatrların səhnələrində, əzəmətli konsert salonlarında Azərbaycanın görkəmli bəstəkarlarının səhnə əsərlərinin tamaşaya qoyulması, simfonik və kamera musiqisinin uğurla səsləndirilməsi bilavasitə ulu öndər Heydər Əliyevin dəstəyi ilə həyata keçirilirdi. Məhz onun uzaqgörənliyi, millətinə sonsuz məhəbbəti sayəsində Azərbaycan musiqisi təkcə SSRİ-də deyil, həmçinin bütün dünyada tanındı.**

Zəngin ensiklopedik biliyə malik, dahi şəxsiyyət Heydər Əliyev dərin kökləri olan milli musiqimizin, eyni zamanda, professional musiqi sənətinin gözəl bilicisi idi. O, musiqini çox sevir, bu sənətin sirlərini dərindən bilirdi, görkəmli musiqiçilərlə yaxın ünsiyyəti vardı. Eyni zamanda, mədəniyyət, incəsənət, elm xadimlərinə diqqəti daim yüksək olmuşdur. Belə ki, bəstəkarların, ifaçıların və musiqişünasların fəaliyyətinin yüksək qiymətləndirilməsi, yaradıcılıq evlərinin tikilməsi, maddi təminatlarının yaxşılaşdırılması, fəxri adlar, orden və medallarla təltif olunması və daha neçə-neçə bu cür əvəzsiz xidmətlər məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev bəstəkarların yaxın dostu idi və bu münasibətlər musiqi sənətinin inkişafına xidmət edirdi. Dahi şəxsiyyətin görkəmli bəstəkarlar Qara Qarayev, Fikrət Əmirov, Niyazi və Müslüm Maqomayev kimi Azərbaycan musiqisinin korifeyləri ilə şəxsi dostluğu onlara yaradıcılıq axtarışlarında və yeni əsərlərin yaranmasında ilham verib. Məsələn, Dahi Liderin maestro Niyazi ilə dostluğu bir çox layihələrin həyata keçməsində mühüm rol oynamışdı. Bu diqqət və qayğının bariz nümunəsi olaraq unudulmaz bəstəkarımız Fikrət Əmirovun SSRİ Dövlət Mükafatına layiq görülməsini göstərmək olar. Qeyd olunanlarla yanaşı, vaxtilə Azərbaycanın bir neçə görkəmli sənətkarına - Qara Qarayevə, Fikrət Əmirova, Niyaziyə və Rəşid Behbudova ən böyük fəxri ad olan "Sosialist Əməyi Qəhrəmanı" adı verilməsini göstərmək olar. Bu fəxri adların sənətkarlarımıza verilməsi onların yüksək sənətkarlığı ilə yanaşı, respublikaya rəhbərlik edən Heydər Əliyevin əməyi idi. Məhz bu böyük şəxsiyyətin qayğısı nəticəsində milli ideyaların təcəssümü olan dünya şöhrətli sənət əsərləri yarandı. Bunlardan biri də Fikrət Əmirovun dünya şöhrətli "Min bir gecə" baleti idi. Bəstəkar Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletini Heydər Əliyev Azərbaycan xalqının milli musiqisini dünyaya tanıdan şah əsərlərdən biri hesab edirdi. Ulu Öndərin bilavasitə qayğısı nəticəsində Xalq artisti Rəşid Behbudov Mahnı Teatrını yaratdı.

Dövlət müstəqilliyimizin ilk illərində bazar iqtisadiyyatına keçidlə əlaqədar yaranmış sosial problemləri dövlət səviyyəsində müvəffəqiyyətlə həll edən ulu öndər Heydər Əliyev yaradıcı ziyalıların, o cümlədən Azərbaycan Bəstəkarlar İttifaqının görkəmli üzvlərinin, xüsusi xidmətləri olan bəstəkar və musiqişünasların əməyini yüksək qiymətləndirdi. 1995-2003-cü illər ərzində ümummilli lider Heydər Əliyevin fərmanı ilə görkəmli bəstəkarlarımız Tofiq Quliyev, Arif Məlikov, Müslüm Maqomayev ən yüksək mükafata - "İstiqlal" ordeninə, Azərbaycan Respublikasının Xalq artistləri Cövdət Hacıyev, Süleyman Ələsgərov, Hacı Xanməmmədov, Vasif Adıgözəlov, Xəyyam Mirzəzadə, Azər Rzayev, Ramiz Mustafayev, Tofiq Bakıxanov, Aqşin Əlizadə, Musa Mirzəyev, Ramiz Mirişli daha bir yüksək Dövlət mükafatı - "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Bu müddətdə Şəfiqə Axundova, Oqtay Zülfüqarov, Emin Sabitoğlu Azərbaycan Respublikasının Xalq artisti, Siyavuş Kərimi və Həsənağa Qurbanov isə Əməkdar incəsənət xadimi kimi fəxri adlara layiq görülmüşlər. Söz yox ki, bu təltiflər bəstəkarlarımızın yaradıcılığı üçün ilham mənbəyi olaraq onları yeni-yeni yaradıcılıq uğurlarına sövq etmişdir.

Ümummilli lider Heydər Əliyev mədəniyyət ocaqlarının bərpasına, təmirinə xüsusi diqqət yetirirdi və məhz onun hakimiyyəti illərində Azərbaycan musiqisi yüksək inkişaf səviyyəsinə çataraq öz dövründə intibah, çiçəklənmə mərhələsini yaşadı. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da Ulu Öndər ölkəmiz üçün ən çətin dövrdə də incəsənət xadimlərinin sənətlə məşğul olmaları üçün lazımi şərait yaratdı, onları mənzillə təmin etdi, gənc nəslin yaradıcılıq imkanlarının genişlənməsinə hərtərəfli yardım etdi, yaşlı nəslin yaradıcılığına da çox böyük qayğı göstərdi.

Azərbaycanın müasir mədəniyyəti hazırda özünün inkişaf dövrünü yaşayır. Bu da ilk növbədə, onun özündən əvvəlki irsə Heydər Əliyev irsinə əsaslanması ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi mədəniyyət sahəsində də böyük nailiyyətlər qazanılmışdır. Habelə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Azərbaycan və dünya mədəniyyətinə göstərdiyi əvəzsiz xidmətləri böyük rəğbət hissi ilə ictimaiyyətə təqdim edir. Azərbaycanın mədəniyyətinin zəngin xəzinəsinin nadir inciləri olan ulu və ölməz muğam irsinin, aşıq sənətinin, Novruz bayramının, Azərbaycan xalçaçılıq sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınmasında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın misilsiz xidmətləri və böyük zəhmət payı vardır.

Dahi şəxsiyyətin adı Azərbaycanın mədəniyyət və incəsənət tarixinə qızıl hərflərlə yazılmışdır. Nə qədər ki, müstəqil Azərbaycan dövləti, xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaq.

**Sahilə Əzizova,**
Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi: orqanologiya və akustika" elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi

## “AZƏRSU” DÜNYA SU ŞURASI İDARƏ HEYƏTİNİN İCLASINDA İŞTİRAK EDİB



**Livanda 7-ci Beyrut Beynəlxalq Su Həftəsi keçirilib. Su həftəsi çərçivəsində təşkil olunan tədbirlərdə iştirak etmək üçün “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri, Dünya Su Şurası İdarə Heyətinin üzvü Qorxmaz Hüseynovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Livanda səfərdə olub.**

2008-ci ildən indiyədək keçirilən Beyrut Su Həftəsi Aralıq dənizi və digər ölkələrlə birgə əməkdaşlıq baxımından mühüm əhəmiyyət daşıyır. Həftə çərçivəsində bir sıra tədbirlər, o cümlədən Dünya Su Şurası İdarə Heyətinin 68-ci iclası keçirilib. İclasda Şuranın növbəti 3 illik Fəaliyyət Planı, 8-ci Dünya Su Forumunun son hesabatları, 9-cu Dünya Su Forumuna hazırlıq işləri və digər məsələlər müzakirə olunub.

Tədbirdə çıxış edən “Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov Azərbaycanda içməli su təchizatı və sanitariya xidmətləri barədə məlumat verib. Bildirib ki, “Azərsu” ASC suyun mənbələrdən götürülməsi, emalı, nəqli və satışını təşkil edir, tullantı sularının təmizlənməsini təmin edir. Eyni zamanda, su və sanitariya sahəsində layihələndirmə və inşaat işlərini həyata keçirir. 2013-cü ildən Dünya Su Şurasına üzv olan Səhmdar Cəmiyyət bu təşkilatla sıx əməkdaşlıq edir.

İclasda təşkilati məsələlərə də baxılıb. Dünya Su Şurasına 9 yeni üzvün qəbul olunması müzakirə edilib və müsbət qərar qəbul olunub. Qeyd edək ki, onlardan 2-si - Caspian Business Management and Consulting və Ekol Mühəndislik Xidmətləri şirkətləri Azərbaycandan quruma yeni üzv seçilib.

Səfər müddətində “Azərsu” ASC-nin sədri Q.Hüseynov Dünya Su Şurasının prezidenti Lui Fuşon, Beynəlxalq Su Resursları Assosiasiyasının fəxri prezidenti Patrik Lavarde, Mərakeşin İçməli Su və Enerji üzrə Milli Agentliyinin direktoru Abdelrahim El Hafidi, Türkiyə Su İnstitutunun prezidenti Ahmet Saatçi, Portuqaliya Su və Tullantı Su Xidmətləri Assosiasiyasının prezidenti Rui Qodinho, Su üzrə Beynəlxalq Ofisin icraçı direktoru Erik Tardieu, Koreya Su Forumunun meneceri Jiyeon June Lee və digər rəsmi şəxslərlə qarşılıqlı maraq doğuran məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparıb.

*Orxan Vahidoğlu,*
*“İki sahil”*

## DÜNYADA İLK DƏFƏ 3D FORMATINDA ÜRƏK ÇAP OLUNUB



İsrailin Təl-Əviv Universitetinin mütəxəssisləri dünyada ilk dəfə insan hüceyrəsindən istifadə etməklə 3D formatında diri ürək çap ediblər.

Trend-in məlumatına görə, “çap prosesi” zamanı onlarla diri ürək çap olunub.

Bu ürəklər funksionallığının tədqiq olunması üçün heyvanlara yerləşdiriləcək.

Qeyd olunur ki, 3D formatında çap olunmuş ürəklərin ölçüsü 2,5 santimetr təşkil edir ki, bu da dovşan ürəyinin ölçülərinə uyğundur.

Bir ürəyin çap olunması 3,5 saat davam edib.

## PARİSDƏKİ MÜQƏDDƏS MƏRYƏM ANA KAFEDRALINDA YANĞIN BAŞ VERİB



Fransa paytaxtında yerləşən Müqəddəs Məryəm Ana kafedralında yanğın baş verib.

AZƏRTAC xəbər verir ki, yanğının başvermə səbəbi məlum deyil.

Hadisə nəticəsində zərər çəkənlərin olması barədə məlumat yoxdur.

## AVROPANI ALDADAN ERMƏNİ SİYASƏTÇİ:

# Paşinyanın AŞPA-da gülünc çıxışı




Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli üçün artıq bir neçə ildir ki, vahid format mövcuddur. Azərbaycan və Ermənistan ATƏT-in Minsk qrupunun çətiri altında müzakirələr aparırlar. Münaqişənin tənzimlənməsi məqsədilə beynəlxalq hüquq normaları çərçivəsində konkret prinsiplər müəyyənləşib. Bu, Helsinki Yekun Aktına və Madrid prinsiplərinə əsaslanır. ATƏT-in 1975-ci il Helsinki Yekun Aktının “gücdən istifadə etməmək və gücdən istifadə ilə hədələməmək” prinsipində vurğulanıb: “Dövlətlər qarşılıqlı münasibətlərində, eləcə də ümumiyyətlə, beynəlxalq münasibətlərində hər hansı ölkənin ərazi bütövlüyü və siyasi müstəqilliyinə qarşı... güc tətbiqindən və gücdən istifadə ilə hədələmədən çəkinəcəklər”. Ermənistan isə daim bu müddəanı arxa plana keçirərək, qeyri-konstruktiv addımlar atıb. Sonuncu dəfə baş nazir Nikol Paşinyan Strasburqda AŞPA tribunasından məhz bu böndə aşkar hörmətsizlik göstərərək, yalanlar danışıb. Bu hadisə ilə bağlı bir sıra məqamların üzərində geniş dayanmağa ehtiyac duyduq.

### Yenə blef: erməni liderin avropalı deputatlara yalan söyləməsi

Nikol Paşinyan küçə ilə AŞPA tribunasını səhv salan növbəti Ermənistan rəhbəri oldu. Onun Strasburqdakı çıxışını (həmin sayıqlamalara ümumiyyətlə çıxış demək mümkündürsə) dinləyən hər bir kəsdə belə bir təəssürat yarana bilər. Ermənistan adlanan qondarma bir dövlətin hökumət başçısı kimi nəinki siyasi cəhətdən əsaslandırılmış fikirlər söyləyib, hətta adi məntiqi nizamı belə olmayan cümlələr işlədib. Ona elə gəlir ki, gözlər ancaq ermənilərdə var, düşünmək qabiliyyətinə də yalnız onlar malikdirlər. Çünki belə olmasaydı, bütün dünyanın bildiyi şeyləri təhrif olunmuş və məntiqsiz qaydada yüksək kürsüdən deməzdi.

Burada əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların formatı, Azərbaycana və Türkiyəyə olan münasibətlərlə əlaqəlidir. Ermənistan hökumətinin başçısı deyir ki, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış oyuncaq rejimin nümayəndələri danışıqlarda iştirak etməlidirlər. Səbəbi də odur ki, “onlar orada doğulublar və heç bir halda işğalçı ola bilməzlər”. Həm də münaqişə edən tərəflərdən biri onlardır.

Bir qədər ciddi düşünən adam üçün bu sözlərin heç bir əhəmiyyəti yoxdur. Çünki Dağlıq Qarabağda yalnız ermənilər doğulmayıblar. Hətta onlar sonradan Rusiyanın xüsusi siyasəti ilə Qarabağa köçürülüblər. İndi qarabağlı sayılan ermənilərin babaları başqa ərazilərdən 200 il əvvəl buraya xüsusi məqsədlə gətirilib-lər. Bunu tarixçilər də, Qarabağda yaşayan ermənilərin özləri də bilirlər. Lakin Qarabağda lap qədimdən türklər (azərbaycanlılar) yaşayıblar. Onların indiki nəsli erməni terrorçuları havadarlarının yardımı ilə qətlə yetirib, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur ediblər. Bax, bu məqamı yox kimi saymağa çalışıb, AŞPA-nın tribunasından Avropaya humanizmdən boşboğazlıqla dəm vuran N.Paşinyanı avropalılar özləri yerində oturtmalıdırlar.

Yenə indiki işğal vəziyyətini əbədi və təbii həqiqət kimi təqdim etməsi siyasi sadəlövhlük, savadsızlıq və mənəviyyatsızlıq olmaqla yanaşı, avropalıları təhqir etmək deməkdir. Həmin parlamentdə əyləşən hər bir deputatın nümayiş xəbərsiz olduğunu nümayiş etdirmək deməkdir. Ortaya belə bir sual çıxır: doğrudanmı, parlamentdəki avropalı deputatlar həqiqəti bilmirlər? Axı məhz onlar sənəd qəbul ediblər ki, Azərbaycanın ərazisinin bir qismini Ermənistan silahlı qüvvələri kənardan olan dəstəklə işğal edib! Üstəlik, N.Paşinyanın sərsəmlədiyi günlərdə AŞPA-da “Azərbaycanın işğal olunmuş ərazilərində və onlara münasibətdə qanunsuz fəaliyyətlər: Avropa Şurası qarşısında götürülmüş öhdəliklər baxımından nəticələr” adlı panel iclası olub.

Əlbəttə, avropalı parlamentarlar çox yaxşı bilirlər ki, N.Paşinyan onları aldadır. Lakin susurlar. Niyə? Maraqlısı budur. Nəticədə elə görüntü yaranır ki, sanki Ermənistan əsl sülh carçısıdır. Görünür, Avropada proseslərin bu istiqamətdə getməsini istəyən dairələr hələ də nüfuz sahibidirlər. Belə olmasaydı, mütləq avropalı deputatlardan kimlərsə N.Paşinyana iradını bildirər və özlərinin aldanmasını istəmədiklərini deyərdi.

Eyni məntiqlə deyə bilərik ki, N.Paşinyanın Azərbaycan Prezidenti ilə danışıqlar haqqında qeyri-səmimi fikir bildirməsinə də münasibət göründü. Ermənistanın baş naziri etiraf edir ki, Azərbaycan dövlət başçısı səmimi müzakirə aparır. Ancaq nəticə alınmır. Səbəbi haqqında isə susur. Ona görə ki, Ermənistan həmişə qeyri-konstruktiv və təcavüzkar mövqe tutur. Onun bir vəzifəsi var: işğal etdiyi ərazilərdən hərbi qüvvələri çıxarmaq! Bu ilkin şərtə əməl etmək əvəzinə min cür hoqqa çıxarırlar. Gah insan haqlarından danışır, gah sülh prosesindən dəm vurur, gah da “Arsax” deyib erməni şovinizmini demokratiya kimi qələmə verməyə çalışırlar. Belə görünür ki, erməni diplomatiyası yeni xülyaya düşüb: reallığı örtbasdır etməklə danışıqları dalana dirəmək.

### Həmsədrlik məsuliyyəti: ikili standartlar və böyük dövlətlərin susqunluğu

Yəni, ümumiyyətlə, işğaldan danışmamaqla diqqəti mücərrəd məqamlara yönəltmək. Bunu gah demokratiya pərdəsi altında, gah absurd “öz müqəddəratını təyinetmə” müddəası görüntüsü ilə, gah da “xoşniyyətli əməkdaşlıq” yalanı ilə gizlətməyə çalışırlar. Təbii ki, bu cür primitiv üsulları adi insanlar belə başa düşürlər. Prezident İlham Əliyev isə hər bir diplomatik ibarənin altında hansı məna və məqsədin olduğunu çox gözəl bilir. Bu səbəbdən də həmişə təmkinlə ifadə edir ki, Ermənistan silahlı qüvvələri işğal etdiyi ərazilərdən birmənalı çıxmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, evlərindən didərgin salınmış Azərbaycan vətəndaşları yurdlarına qayıtmalıdırlar!

Burada aydın olmayan, ədalətsiz nə vardır? Qətiyyən heç nə yoxdur. Səmimi olan üçün hər şey gün kimi aydın və beynəlxalq hüquq normalarına tam uyğun olandır. Ancaq N.Paşinyan öz küçə ağlı ilə hesab edir ki, bu kimi tələblərin üstündən sükutla keçib, prosesi mənasız bir məcraya yönəldə bilər. Qətiyyən mümkün deyildir. Ermənistan rəhbərinin kim olmasından asılı olmayaraq, Azərbaycan haqlı tələbindən zərrə qədər də geri çəkilə bilməz: işğal edilmiş ərazilər azad edilməlidir, vəssalam!

Bunun əvəzində başqa heç bir söz belə Azərbaycan üçün müzakirə obyekti deyil. Əgər Ermənistan silahlı qüvvələrini işğal etdiyi ərazilərdən qeyd-şərtsiz çıxaracaqsa (BMT TŞ-nin dörd qətnaməsində məhz bu tələb qoyulub), ondan sonra digər məsələlərə baxmaq olar. Bu tələb dəfələrlə erməni tərəfə bildirilib və bildirilir. Lakin onlar yenə də müxtəlif bəhanələrə meyl göstərirlər. Bunun da əsas səbəbi Ermənistanın forpost olması və böyük dövlətlərin qeyri-səmimiliyi ilə bağlıdır.

Məsələ ondan ibarətdir ki, Ermənistan başqa ölkədən tam asılıdır. Onun öz qərarı yox dərəcəsindədir. Daim kənardan verilən göstərişləri yerinə yetirir. Eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədrləri statusunda olanlar da Ermənistana gizli havadarlıq edirlər. Onlar sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini deyir, ancaq əməldə isə bunun təmin edilməsi üçün üzərlərinə düşəni yerinə yetirmirlər. Həmsədrlərin hər biri yol göstərir: münaqişə tərəfləri danışsınlar, bir razılığa gəlsələr, biz də dəstəkləyəcəyik. Pərdə arxasında isə İrəvana “destruktiv ol!” deyə, pıçıldayırlar. Bunları gizlətməyin mənası yoxdur. Çünki artıq uzun illərdir ki, münaqişə ilə bağlı aparılan danışıqlar süründürülür. Ermənistan köşəyə sıxışdırılan kimi kənardan ortaya fərqli bir bəhanə atılır və sakitcə ermənilərin həmin bəhanəni necə çeynəyib “real fakt” kimi təqdim etdiyini seyr edirlər.

İndi N.Paşinyanın “”Arsax” danışıqlar tərəfidir” kimi əsassız tələbi də həmin qəbildəndir. Belə olmasaydı, N.Paşinyanı dərhal susdurar və tələb edərdilər ki, hərbi qüvvələri işğal altındakı Azərbaycan ərazilərindən çəksin. Bunun əvəzində “münaqişə edən tərəflər danışsınlar” kimi mücərrəd fikir bildirirlər. Guya vəziyyət aydın deyil? “Hərbi əməliyyatlar başlamasın” tələbini qoyanlar Ermənistandan Azərbaycan torpaqlarından çəkilmək tələbini qoya bilməzlər? Ermənistan nədir ki, buna etiraz edə bilsin? Həm də haqsız tərəfin etirazına niyə baxılmalıdır?

Bütün bunlar N.Paşinyan kimilərin Avropanın özündə avropalıları axmaq yerinə qoymasına şərait yaradır. Oradan o, Azərbaycan və Türkiyə iftira və yalanlar səsləndirir. Türkiyə ilə ön şərtsiz əlaqələr yaratmağa hazır olduğunu deyir. Azərbaycanı isə “hərbi ritorika” ilə gərginlik ab-havası yaratmaqda ittiham etməyə cəhd göstərir. Bir avropalı deputat sual etmir ki, sənin Dağlıq Qarabağda nə işin, ora Azərbaycan ərazisidir?!

Belə çıxır ki, N.Paşinyan növbəti təlxəkliyini havadarlarının dəstəyi ilə edib. O, danışıqlar prosesini pozmaq üçün absurd bir mövqe tutub. Yalan ayaq tutur, ancaq yerimir. Azərbaycanın səbrinin bir həddi var. O, tükənəndən sonra Ermənistan üçün olduqca acınacaqlı bir vəziyyət yaranacaq. Onda erməni separatizminin tör-töküntülərini heç kim və heç nə xilas edə bilməyəcək!

**Newtimes.az**

# Azərbaycan alimlərinin növbəti uğuru





**Bakının ürəyində yerləşən Bakı Qalası - İçərişəhər mədəni irsin nadir incilərindən biridir. Bu tarixi məkan zaman-zaman tədqiq olunub və bir çox sirləri bizlərə açıb. Lakin zaman ötdükcə, milli təfəkkür formalaşdıqca bir çox tarixi məqamlara yeni prizmadan yanaşmaq ehtiyacı duyulur və yeni elmi əsərlər meydana gəlir.**

İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin son illərdə apardığı gərgin və sistemli elmi axtarışlar "Бакинская крепость - Ичеришехер" adlı əsərin meydana gəlməsi ilə nəticələndi. Əsər Azərbaycan elmində artıq öz sözünü demiş görkəmli alimlərin böyük zəhməti nəticəsində ərsəyə gəlmişdir.

Kitab layihənin müəllifi, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərovun giriş sözü ilə açılır.

Kitabda Bakı Qalasına dair geniş məsələlər spektri öz əksini tapmışdır. Burada Bakının zəngin tarixi faktlara söykənən yığcam tarixi oçerki, İçərişəhərin memarlığı, arxeologiyası, etnoqrafiyası, numizmatikası, epiqrafikası, Bakı xalçaları, Bakı mətbəxi haqqında ətraflı bəhs olunur. Əsər maraqlı elmi-populyar dildə yazılmış və zəngin tariximizi, mədəniyyətimizi oxucuya sadə tərzdə çatdırır. Kitab polioqrafiyanın son nailiyyəti səviyyəsində nəfis şəkildə, yüksək dizaynla Rusiyanın Sankt-Peterburq şəhərində yerləşən "Petropolis" nəşriyyat evində işıq üzü görüb. Kitab rus dilində təqdim olunub.

Kitabın məhz rus dilində nəşr etdirməyimizin bir neçə səbəbi var. Bunlardan biri Azərbaycan ziyalılarının bütün zamanlarda qınaq obyektinə çevrilməsinin əsas səbəbi əsərlərinin ölkə hüdudlarından kənara çıxmamasıdır. Bu irad daha çox humanitar sahədə çalışan alimlərimizə aiddir. Burada zaman, dil, məkan faktorları önəmli yer tutur. Bu gün dünyada gedən qloballaşma prosesində xalqların "ölüm-dirim" mübarizəsində yaşamaq hüququnu yalnız öz tarixinə, fərqli mədəniyyətinə malik olan, onu qoruyan və təqdim etməyi bacaran xalqlar qazana bilər. O xalqlar ki, humanitar elmlər vasitəsi ilə mədəniyyətini, tarixini faktoloji materiallar əsasında dünya ictimaiyyətinə çatdıra bilir. Buna əsaslanaraq biz bu kitabı rus dilində hazırladıq. Rus dili millətlərarası ünsiyyət dili olduğundan kitabın geniş coğrafiyada yayılmasına və geniş kütlələrin Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə yaxından tanış olmağına nail oluruq. İkinci səbəb kimi ölkəmizdə turizmin inkişafı və rusdilli turistlərin əksəriyyət təşkil etdiyi bir dövrdə mədəni irsimizi təbliğ etmək istiqamətində bu kitabdan əyani vəsait kimi istifadə oluna bilər. Mühüm səbəblərdən ən əsası ondan ibarətdir ki, diaspor təşkilatlarımızda bu cür əyani təbliğat vasitələrinin yox dərəcəsində olmasıdır. Vətənə dərin, qırılmaz tellərlə bağlı olan qürbətdə yaşayan çoxsaylı həmvətənlərimiz üçün qədim və mədəni xalqın nümayəndələri olduqlarını sübuta yetirən ən tutarlı sənəddir bu kitab.

Kitabın nəşrə hazırlanmasında Rusiyanın mədəni paytaxtı sayılan Sankt-Peterburq şəhərinin Azərbaycan icması aktiv iştirak etmişdir. İcmaya rəhbərlik edən Sabir Məsimov Sankt-Peterburq şəhərinin Petroqrad rayonunun fəxri vətəndaşı, deputat, gözəl təşkilatçı və çox ciddi, vətənpərvər bir insandır. Sabir müəllim kitabın nəşri üçün lazım olan vəsaitin toplanması və nəşriyyatla işi öz üzərinə götürmüş və qısa bir müddət ərzində Rusiyanın müxtəlif şəhərlərində fəaliyyət göstərən diaspor təşkilatlarının rəhbərlərini bir araya yığaraq işi yüksək səviyyədə icra etmişdir. Nəticədə həm məzmunca həm formaca çox nəfis, dəyərli bir kitab ərsəyə gəlmişdir.

Bütün bu işlərin başında duran Rusiyada böyük nüfuz sahibi olan həmvətənimiz, ürəyi Azərbaycanla döyünən, adını gururla çəkdiyimiz professor, fəlsəfə qrantdoktoru, akademik, Rusiya Təhsil Akademiyasının Smolnı İnstitutunun Müşahidə Şurasının sədri, "Sankt-Peterburq Azərbaycan diasporu" regional ictimai təşkilatının fəxri sədri Heydər Məmmədrza oğlu İmanovu xüsusi qeyd etmək istərdik. Zəngin təfəkkürə malik olan bu Vətən oğlu Smolnı İnstitutunun təsisçilərindən biri kimi, bu gün Türk-Slavyan Universitetinin yaranmasında mühüm addımlar atmışdır. Gələcəyin inkişaf yolunu, regionda əmin-amanlığın bərqərar olmasını bu iki xalqın birgə fəaliyyətində görən bu müdrük insan bu gün bunun təməl daşını qoyanlardandır.

Sankt-Peterburqda mətbəədə nəşrin bütün ağırlığını üzərinə götürmüş bir vətənpərvər oğuldan da söz açmaya bilmərik. Bu, kitabın məsul redaktoru Fuad İbrahimlidir. Ziyalı, çox zəhmətkeş, təvazökar bir insan, adını dərin hörmətlə çəkdiyimiz Vətən oğlu. Taleyimizə minnətdarıq ki, Azərbaycandan uzaqlarda, qürbətdə bizi gözəl insanlarla tanış etdi, dostlaşdırdı. Fuad müəllimlə birgə Smolnı İnstitutunun əməkdaşı, üzügülər xanım Natalya Stanislavovna Radevskayanın da bu işdə böyük zəhmətini qeyd etmək istərdik və bu mehriban xanıma dərin minnətdarlığımızı bildiririk. Rusiyanın diaspor rəhbərləri ilə tanışlıq, onların əksəriyyətinin gənc olmasına baxmayaraq çox müdrik, vətənpərvər olduğunun şahidi olduq və bu da bizi çox qürurlandırdı.

Kitabın təqdimat mərasimi bu ilin 5 aprel tarixində Sankt-Peterburqun Smolnı İnstitutunun böyük akt zalında təntənəli şəkildə keçirilmişdir. Təqdimat mərasimində diaspor təşkilatlarının rəhbərləri ilə yanaşı, Rusiyanın alimləri, ziyalıları, deputatları və s. iştirak etmişlər. Təqdimatın Sankt-Peterburq şəhərində keçirilməsi təsadüfi deyildi. Bu şəhər yüzlərlə azərbaycanlı ziyalılarının yetişməsində, inkişafında və tanınmasında Moskvadan daha çox rol oynamışdır. Digər tərəfdən, Sankt-Peterburqun Azərbaycan diaspora təşkilatı yüksək nüfuzu ilə seçilir. Bu təşkilatda Rusiyanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayan alimlər, ziyalılar, deputatlar təmsil olunmuşdur. Onların hər biri ilə Azərbaycan fəxr edə bilər.

Təqdimat mərasimində çıxış edən natiqlər bu tədbirin Azərbaycan və Rusiyanın mədəni həyatında baş vermiş mühüm hadisə olduğunu qeyd etmişlər. Kitabın təqdimat mərasimində Rusiyadakı çoxsaylı diaspor nümayəndələrimizin bir araya toplaşması bir daha birliyin nümayişi idi. Fuad İbrahimli öz çıxışında bunu çox düzgün ifadə etdi: "Müəyyən tarixi dövrlərdə milləti müharibələr birləşdirir. Bu gün bizi kitab, bilik birləşdirdi. Vətənə məhəbbət onun tarixini, köklərini öyrənməkdən başlayır".

Təxminən dörd saat çəkən təqdimat mərasimi Smolnı İnstitutunun akt zalında 200 nəfərin iştirakı ilə təntənəli şəkildə keçmişdir. Yadda qalan çıxışlardan Smolnı İnstitutunun rektoru, tarix elmləri doktoru, general Kazantsev Viktor Prokopiçin çıxışını qeyd etmək istərdik. O, çıxışında bildirmişdir ki, kitabın dünyanın ən qədim şəhərlərindən olan Bakı şəhərinə və onun incisi olan İçərişəhərə həsr olunması oxucuya bir daha Azərbaycanın çoxəsrlik tarixi ilə tanış olmaq imkanı yaradır. Kitabın rus dilində nəşri Azərbaycan və rus xalqlarının mədəni əlaqələrinin möhkəmlənməsində böyük rol oynadığını vurğulamışdır. Eyni zamanda, rus dili vasitəsi ilə kitabın geniş postsovet məkanında yayılmasına imkan yaradacağı haqqında bəhs etmişdir. Çıxışının sonunda natiq Azərbaycan dilində Səməd Vurğunun "Azərbaycan" şeirindən bir bəndi səsləndirmişdir. Natiqin çıxışı gurultulu alqışlarla qarşılanmışdır.

Digər natiq - Sankt-Peterburqun miqrasiya siyasəti və millətlərarası münasibətlər komitəsinin baş mütəxəssisi A.Frolovun çıxışında kitabın əsas missiyasının nəinki Rusiyada, eləcə də bütün dünyada yaşayan azərbaycanlıların bir araya gəlməsi üçün mühüm bir faktor olduğu vurğulanmışdır. Eyni zamanda, natiq qeyd etmişdir ki, kitab Sankt-Peterburqda millətlərarası münasibətlərin harmoniyasını yaratmaqda əsas rol oynaya bilər. Bu harmoniyaya yalnız biliklərə yiyələnməklə çatmaq olar.

Bu gün qədim tariximizin, zəngin mədəniyyətimizin təbliği vasitəsi ilə dünyada gələcək mövqelərimizi möhkəmləndiririk. Bu işdə ən önəmlisi birlikdir ki, biz bu gün buna nail ola bildik.

**Vəfa Quliyeva,**
tarix elmləri doktoru

**Qənirə Pirquliyeva,**
tarix üzrə fəlsəfə doktoru

## İMƏCİLİKDƏ 800 MÜXTƏLİF AĞAC NÖVÜ ƏKİLİB



Aprel ayının 13-də "Azəriqaz" və "Azərkimya" İstehsalat birliklərinin əməkdaşları Sumqayıt şəhəri ərazisində abadlaşdırma və yaşıllıqların salınması məqsədilə birgə iməciliklər keçirmişlər. Ətraf mühitin mühafizəsi və insanların sağlam təbii mühitdə yaşaması istiqamətində aparılan işlər sırasında yaşıllaşdırma işlərinin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq bu sahəyə xüsusi diqqət yetirilmişdir.

Böyük ruh yüksəkliyi şəraitində keçən iməcilik zamanı Etilen-polietilen zavodunun Azot-oksigen qurğusunun qarşısında yerləşən yaşıllıq zonası üçün ayrılmış ərazisində ümumilikdə 800 ədəd müxtəlif ağac növləri əkilib. Ərazidə mövcud olan ağac və tinglərə su verilib və dibləri bellənib.

Xatırladaq ki, iməciliyə səhər saatlarından start verilib və bir neçə saat davam edib. İməcilikdə "Azəriqaz" və "Azərkimya" İstehsalat birliklərinin 100-dən artıq əməkdaşı iştirak edib.

## BSU-nun TƏLƏBƏLƏRİ COCUQ MƏRCANLIDA



Aprelin 15-də Bakı Slavyan Universitetinin (BSU) IV kursunda təhsil alan bir qrup tələbəsi könüllü olaraq Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd orta məktəbinə pedaqoji təcrübəyə yollanıblar.

BSU tələbələrini Təcrübə və məzunların karyera inkişafı şöbəsinin müdiri Yaşar Alxasov, təcrübə rəhbəri kimi Rus dili və onun tədrisi metodikası kafedrasının baş müəllimi Ərkinaz Məmmədhəsənzadə müşayiət ediblər. Cocuq Mərcanlıya yola düşən tələbələr - Azərbaycan filologiyası və jurnalistika fakültəsinin tələbələri Samir Abdulov, Leyla Hacıyeva, SABAH qruplarının rus dili müəllimliyi üzrə təhsil alan tələbəsi Zarema Tintinova, Pedaqoji fakültənin rus dili müəllimliyi ixtisası üzrə təhsil alan tələbəsi Ülviyyə Mədətova, həmin fakültənin təhsildə sosial psixoloji xidmət ixtisasının tələbəsi Kamilə Abbasova işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində pedaqoji təcrübə təşkil etdiyinə görə BSU rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Gənc müəllimlər Cocuq Mərcanlıda pedaqoji təcrübə keçməyi qürurverici hal kimi dəyərləndirərək Vətənimizin gələcəyi naminə çalışmağın hər bir Azərbaycan vətəndaşının borcu olduğunu deyiblər. Tələbələr bildiriblər ki, pedaqoji təcrübə aprel döyüşlərinin üçüncü ildönümünə təsadüf etdiyi üçün Cocuq Mərcanlı kənd orta məktəbində vətənpərvərlik mövzusunda bir sıra tədbirlər, şeir müsabiqələri keçirəcəklər.

**Zahid Rza,**
***"İki sahil"***

## BMT VƏ Aİ AZƏRBAYCANDA YENİ LAYİHƏYƏ BAŞLAYIR

BMT və Avropa İttifaqı (Aİ) Azərbaycanda iqlim dəyişikliyi ilə mübarizə üzrə "EU4Climate" regional layihəsini işə salır.

Trend-in məlumatına görə, bunu Aİ-nin Azərbaycandakı nümayəndəliyinin müşaviri Simona Qatti Bakıda layihənin təqdimatı zamanı deyib.

Layihənin maliyyələşdirilməsi ilə BMT və Aİ məşğul olacaq. S.Qatti qeyd edib ki, Aİ iqlim dəyişikliyi ilə mübarizə məsələlərində Azərbaycanla əməkdaşlığı edir: "Bu layihə Azərbaycanda Paris sazişində əks olunan tədbirləri reallaşdırmağa kömək edəcək, eləcə də bu istiqamətdə qanunvericiliyin təkmilləşməsini dəstəkləyəcək".

Bu layihənin "Şərq tərəfdaşlığı" ölkələrində - Azərbaycan, Gürcüstan, Belarus, Moldova, Ukrayna və Ermənistanda reallaşdırılması nəzərdə tutulur.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Azneft” İstehsalat Birliyi

**stendlərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11003AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 14.05.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər 59 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin təchizat 90 gün ərzində icra olunması tələb olunur

***V. Müsabiqə təklifinin təminatı:***

* İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur. (tələb olunmur)
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.
* Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, “Azneft” İB

**Əlaqələndirici şəxs:**

Qasımov Vüqar
Satınalmalar və Təchizat şöbəsi, mühəndis
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 382 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 82
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: Vuqar.Qasimov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 14.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Azneft” İstehsalat Birliyinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Azneft” İstehsalat Birliyi

**idarələrinin tələbatına əsasən MS-20 markalı sürtkü yağına açıq satınalma müsabiqəsi (11084AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 09.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 16.05.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər LOT 1 üzrə 590 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 90 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

* LOT-1 üzrə İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.
* Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu Neftçilər prospekti 73,

**Əlaqələndirici şəxs:**

Orucov Mirismayıl
Satınalmalar və təchizat şöbəsi, ekspert
+99450 841 12 62
+99412 521 12 62
+99412 521 11 72
Mirismayil.orucov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 16.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Azneft” İstehsalat Birliyinin Satınalmalar qrupu**

GƏNCLİYİMİZİN SƏDASI...

# Almaxanım Əhmədli: Uğurlara aparan yol öyrənməkdən və çalışmaqdan keçir

***"İki sahil" qəzeti və internet televiziyasının gələcəyimizin qurucuları olan qabaqcıl gənclərlə "Gəncliyimizin sədası" adlı yeni layihəsində növbəti həmsöhbətimiz VI Muğam Müsabiqəsinin qalibi, AzTV-nin solisti, gənc xanəndə Almaxanım Əhmədlidir. Gənc ifaçının hələ 13 yaşındaykən muğam, təsnif, xalq və bəstəkar mahnılarından ibarət "Qarabağ" adlı ilk audio diski işıq üzü görüb. 2014-cü ilin mart ayında türk xalqları üzrə Beynəlxalq Musiqi Müsabiqəsinin qalibi kimi "Bürünc" medala layiq görülüb və diploma təltif olunub.***

Gənc muğam ifaçısı ilə söhbətimizə az rast gəlinən adının haradan qaynaqlandığı ilə bağlı sualımızla körpü atdıq: "Atamın anasının adını daşıyıram və bu ismi çox sevirəm. Musiqisevər bir ailədə böyümüşəm. Atam Vüqar Əhməd ədəbiyyat sahəsində fəaliyyət göstərsə də, violonçel təhsili alıb, indi də asudə vaxtlarında piano, kamança çalmaqla məşğul olur. Belə bir mühitdə yetişdiyim üçün mən də gördüyümü götürmüşəm, uşaqlıqdan musiqiyə həvəsim yaranıb. 13 saylı musiqi məktəbinin muğam sinfində təhsil almışam. Hazırda Azərbaycan Milli Konservatoriyasının Solo oxuma fakültəsində Əməkdar artist, muğam ustası Təyyar Bayramovun sinfində ikinci kurs tələbəsiyəm.

Muğam müsabiqəsində qalib olmağım mənə gələcəkdə bu sahədə özümü daha da inkişaf etdirmək üçün əlavə stimul verdi. Bəzən bəstəkar mahnılarımıza, retro musiqilərimizə də müraciət edirəm. Amma özümü daha çox muğamda tapıram. Çalışıram ki, bütün ustad sənətkarlarımızın ifalarını dinləyim".

Həmsöhbətimiz bildirdi ki, muğam müsabiqəsinin qalibi olduqdan sonra 2017-ci ildə solist olaraq AzTV-yə işə dəvət edilib: "Artıq iki ildir AzTV-də çalışıram. Tacikistanda, Gürcüstanda və digər xarici ölkələrdə muğam triosunda çıxış etmişəm. Dövlətimiz bizləri seçib Azərbaycan musiqisinin təmsilçisi kimi xaricə göndərir. Bu, bizim üçün həm qürurverici, həm də çox məsuliyyətli bir işdir. Ümid edirəm ki, gələcəkdə səfərlərimizin davamı olar və biz də çalışarıq ki, ölkəmizin mədəniyyətini, muğamımızı xaricdə bundan sonra da layiqincə təmsil və təbliğ edək.

Muğam bizim mənəvi irsimizdir, kökümüzdür. Bu ali irsi təmsil etmək mənim üçün böyük şərəfdir. Bütün muğamlarımızı sevirəm, amma "Dilkeş" muğamı ruhuma daha yaxındır. Bu muğam duyğularıma xitab edir, xüsusilə də Xalq artisti Arif Babayevin ifasında "Dilkeş"i dinləməyi daha çox sevirəm".

Gənc xanəndə klassik şairlərimizin qəzəllərinin ifa olunduğu muğam gecələrində tez-tez iştirak etdiyini deyərək ifalarında demək olar ki, əksər klassik şairlərimizin qəzəl yaradıcılığına müraciət etdiyini vurğuladı: "Muğamlarımızda klassik şairlərimizin qəzəllərini ifa edirik. Bildiyiniz kimi, 2019-cu il Prezident İlham Əliyevin Sərəncamı ilə "Nəsimi İli" elan olunub. Bununla əlaqədar, muğamlarımızda dahi şair İmadəddin Nəsiminin qəzəllərinə indi daha çox müraciət etməyi düşünürük. Müasir qəzəlxanlardan Əliağa Vahidin yaradıcılığı daha asan anlaşıldığı, dili daha xəlqi olduğu üçün ustad şairin qəzəlləri ifalarımızda üstünlük təşkil edir. Bildiyiniz kimi, dahi klassik şairlərimizdə izafət tərkibləri çox istifadə olunduğu üçün biz gənc ifaçılar bəzən nələrisə anlamaqda çətinlik çəkdikdə ustad sənətkarlarımıza üz tuturuq, onlardan öyrənirik".



Almaxanım Əhmədli seçdiyi sənətdə uğur qazanması üçün ailəsinin ona böyük dəstəyindən söz açdı: "Atam şair Vüqar Əhmədi nəzərdə tutaraq bəzən soruşurlar ki, iki istedad bir evdə çətin olmur ki? Xeyr, əksinə, atam şeiri, musiqini əla bildiyi üçün hər zaman mənə dəstək olur. Ailəm mənim seçdiyim, sevdiyim sahədə uğur qazanmağım üçün əlindən gələni əsirgəmir. Atamın məsləhətləri, tövsiyələri həmişə köməyimə çatır. Xarakterçə mühafizəkaram, köhnəfikirliyəm (gülür), ona görə də atamın istər sənət, istər həyat barəsində məsləhətləri ürəyimdən olur. Həm də təkcə atamdan yox, bu sənətə illərini vermiş ustadlarımızdan da həmişə öyrənməyə, onların tövsiyələrini dinləməyə çalışıram".

Müsahibimiz son dövrlərdə gənclərin muğam ifaçılığına artan marağından da bəhs etdi: "Azərbaycan Respublikasının Birinci vitse-prezidenti , Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın himayəsi və rəhbərliyi ilə son illərdə Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və dünyada təbliği sahəsində böyük işlərin həyata keçirilməsi gənclərdə muğama olan marağı daha da artırıb. Azərbaycan muğamının UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil edilməsi də Mehriban xanımın əməyinin nəticəsidir. Muğam bizim keçmişimizdir, dəyərli mənəvi irsimizdir. Biz keçmişimizi yaxşı bilməliyik ki, gələcəyimizi də ürəyimizcə qura bilək. Bizə çatdırılan mənəvi irsimizi-muğam sənətini biz də layiqincə gələcək nəsillərə ötürməliyik. Bu, mənəvi borcumuzdur".

Almaxanım Əhmədli gələcək üçün böyük arzularla yaşadığını və uğurlara aparan yolun zəhmətdən, çalışmaqdan, öyrənməkdən keçdiyini vurğuladı: "Bilirəm ki, arzularımı reallaşdırmaq üçün istedadla yanaşı, zəhmət də çox vacibdir. Hələ yolun əvvəlindəyəm, öyrənməli və muğamın incəliklərini mənimsəmək üçün çox çalışmalıyam. Ümid edirəm ki, gələcəkdə zəhmətlə istedadın birgə yol yoldaşlığı nəticəsində seçdiyim sahədə uğurlarımın davamı gələcək".

**Sevinc Abdullayeva,**
***"İki sahil"***

# Sumqayıtda səyyar qəbul-görüş



Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov növbəti səyyar qəbul-görüşünü şəhərin 5-ci mikrorayon ərazisində keçirib.

"İki sahil" xəbər verir ki, qəbulda 30-a yaxın vətəndaşın təklif, müraciət və şikayətləri şəhər rəhbəri tərəfindən dinlənilib.

Səyyar qəbulda sakinlərin sosial müdafiə, məhəllədaxili yolların asfaltlanması, dam örtüklərinin vurulması, çoxmənzilli yaşayış binalarında mənzillərin mərkəzləşdirilmiş istilik sistemləri ilə qızdırılmasının təmin olunması və digər məsələlərlə əlaqədar problemləri dinlənilib, vətəndaşların müraciətlərində qaldırılan məsələlərin böyük bir qismi yerindəcə həll olunub, araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin isə qanunvericiliyə uyğun, operativ həlli üçün aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

Səyyar qəbulda iştirak edən şəhər sakinləri Sumqayıtda son illərdə görülmüş genişmiqyaslı işlərdən razılığını ifadə ediblər, onların müraciətlərinə xüsusi diqqətlə yanaşıldığına görə şəhər rəhbərliyinə öz minnətdarlıqlarını bildiriblər.

# "Azərsu" Xətaidə su xətlərini yeniləyir

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (ASC) Bakının Xətai rayonu ərazisinin bir hissəsində məhəlləaxili və zirzəmidən keçən su xətlərinin yenilənməsinə başlayıb.**

Bu barədə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı "İki sahil"ə açıqlamasında deyib. Onun sözlərinə görə, həmin ərazidə köhnəlmiş xətlər yenisi ilə əvəzlənir: "Sovet dövründə tikilmiş və istifadəyə yararsız olan bütün su xətlərini yeniləyirik. Hazırda biz Xətai rayonu ərazisini 3 saat səhər, 3 saat axşam içməli su ilə təchiz edirik. Yəni bu gün yalnız qrafiklə su vermək üçün texniki imkanlarımız var. Amma gələcəkdə bu işlər tam yekunlaşandan, bütün məhəllədaxili, binadaxili xətlər yeniləndən və sayğacla təmin olunandan sonra imkanımız var ki, həmin ərazilərdə hidrofor sistemi qurulsun və sakinləri 24 saat fasiləsiz içməli su ilə təchiz edək."

A.Cəbrayıllı onu da qeyd edib ki, "Azərsu" binalardan su çənlərini yığışdırmayacaq: "Gələcəkdə xətlər yeniləndən sonra da sakinlərin ixtiyarı var ki, su çənlərini saxlasınlar və yeni xətdən sayğacdan keçmək şərti ilə çənlərindən istifadə etsinlər. Hazırda 38 binanın su xətlərinin yenilənməsi nəzərdə tutulur. Hələ ki həmin binalara qrafiklə su veriləcək. Bu ərazidə yenilənmə tam başa çatandan sonra vətəndaşların fasiləsiz su ilə təmin olunması məsələsinə baxıla bilər."



# YAP Ucar rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı



Yeni Azərbaycan Partiyası (YAP) Ucar rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib. YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva bildirib ki, təşkilat sıralarında 4010 üzvü birləşdirir. Onların 1120 nəfəri gəncdir. Gənclərin isə 781-i qadındır. Təşkilatın Gənclər Birliyinin üzvlərindən 567-si ali, 289-u orta ixtisas, 264-ü orta təhsillidir. Onlardan 563-ü təhsil, 101-i mədəniyyət, 123-ü səhiyyə sahələrində, 120-si idarəetmə orqanlarında, 126 nəfəri isə digər idarə və müəssisələrdə çalışır.

Sonra YAP Ucar rayon təşkilatı Gənclər Birliyinin sədri Ceyhun Qəhrəmanov hesabat məruzəsi ilə çıxış edib.

Məruzə ətrafında çıxışlarda YAP rayon təşkilatı Gənclər Birliyinin fəaliyyəti geniş təhlil edilib. Azərbaycanda, o cümlədən Ucarda sosial-iqtisadi sahələrdə qazanılan uğurlardan danışılıb, bu sahədə Yeni Azərbaycan Partiyasının, eləcə də onun sıralarında aparıcı qüvvə olan gənclərin rolu yüksək qiymətləndirilib.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvləri - ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev, YAP Gənclər Birliyinin sədri Seymur Orucov ölkəmizdə gənclərə göstərilən yüksək diqqət və qayğıdan, ulu öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin uğurlarından danışıblar.

Sonra təşkilati məsələlərə baxılıb. Konfransda YAP Ucar rayon təşkilatının Gənclər Birliyi Şurasına 19, İdarə Heyətinə isə 11 nəfər seçilib. Ülvi Qəhrəmanzadə yenidən Gənclər Birliyinin sədri, Vüqar Səlimov və Yusif Məmmədov sədrin müavinləri seçiliblər. Bundan başqa, YAP Gənclər Birliyinin ümumrespublika konfransında iştirak edəcək iki nümayəndə də müəyyənləşdirilib.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Paşinyanın “gəmisi” hansı “limana” yan alacaq?



Sevinc Azadi

Bu günlərdə Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasının plenar iclasında iştirak edən Ermənistanın baş naziri Nikol Paşinyanın verdiyi açıqlama erməni mətbuatı ilə yanaşı, elə erməni cəmiyyətində də birmənalı qarşılanmayıb: “Ermənistan Avrasiya İqtisadi Birliyinin üzvüdür və bu təşkilatı təmsil edir. Ermənistan, eyni zamanda, KTMT-nin də üzvüdür və biz bu qurumlarda üzvlüyümüzü daha səmərəli etmək üçün əlimizdən gələn hər şeyi edəcəyik”. Bundan əlavə, Rusiya ilə münasibətlərin strateji xarakter daşıdığını bildirən erməni baş nazir bunun davamlı olması üçün əllərindən gələni edəcəklərini bildirib.

Belə görünür ki, Paşinyan “gəmisinin” hansı “limana” - Rusiyaya, yoxsa Qərbə tərəf yan alacağını hələ özü də dəqiq bilmir. Yox, əgər bilirsə də hələ ki, “ermənilik” edərək gizlədir. Çünki o, hələ mitinqlər zamanı, yəni “nazirbaşı” olmamışdan əvvəl Rusiya Dövlət Dumasının deputatları ilə görüşdən sonra - “Görüşdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi Birliyi haqqında danışıldı və görüş konstruktiv keçdi. Mən Rusiyadan olan kolleqalarımı inandırdım ki, hakimiyyətə gəlsək, Avrasiya İqtisadi Birliyindən və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmaq məsələsini qaldırmayacağıq” - desə də, amma müxalif deputat olan zaman Ermənistanın Avrasiya İqtisadi Birliyinə könüllü yox, məcburi qoşulduğunu deyirdi. Rusiya-Ermənistan münasibətlərini isə “diktə edən və qulaq asan” kimi səciyyələndirirdi.

“ArmenianReport” saytı Paşinyanın bəyanatından sonra Qərbin Ermənistanla münasibətində ciddi dəyişikliklər olacağını istisna etmir: “Axı Qərbin Ermənistandakı “məxməri inqilab”dan sonra İrəvana dəstək verərək, bu ölkədə Kremlin diktatorlarının hakimiyyətinə son qoyulmasına rəğbət nümayiş etdirməsi elə də bir sirr deyildi. Ermənistan sakinləri də Paşinyanın tezliklə ölkəni Avropaya aparacağını düşünürdülər. Çünki onlar Paşinyana, onun xalqa verdiyi vədlərə inanırdılar. Axı Ermənistanın Rusiyanın himayəsində olan Avrasiya İqtisadi Birliyi, KTMT kimi təşkilatlara qəbulunu ölkəsi üçün yanlış yol kimi dəyərləndirən məhz indiki baş nazir Nikol Paşinyan deyildimi? Bəs belə olan halda Paşinyanı Strasburqda İrəvanın xarici siyasətinin dəyişməyəcəyini bəyan etməsinə vadar edən nədir?

Əslində, “hiyləgərliyi olduqca murdar, riyakarlıqları isə dözülməz” (fransız səyyah de-Şolye) olan bu millət nümayəndəsinin verdiyi bəyanatın arxasında nələr gizləndiyni sezmək o qədər də çətin deyil. Belə ki, son günlər müharibə mövzusunun gündəmdə yer aldığını və əgər bu baş verərsə, cılız bir ölkənin hansı aqibətlə üzləşəcəyini gözə alan ermənilər indidən “hazırlıqlarını” görməyə başlayıblar.

# “Darvin” şirkəti cərimələnib



“Iki sahil” “au.news.yahoo.com” saytına istinadən xəbər verir ki, “Darvin” sənaye şirkəti səbəb olduğu irihəcmli neft sızması hadisəsinə görə və baş verən bədbəxt hadisənin canlı təbiətə göstərdiyi mənfi təsirə görə cərimələnib. Şimal Ətraf Mühitin Mühafizəsi Agentliyi sözügedən şirkəti keçən ilin fevral ayında səbəb olduğu neft sızmasına görə cərimələyib.

Sızma geniş ərazini əhatə edib və göstərdiyi mənfi təsir yüzlərlə quşun məhvinə səbəb olub. Agentlikdən verilən məlumata görə, şirkətin keçən il baş verən sızmanı təmizləmək, çirklənmə baş verən ərazidən sızan nefti toplamaqla bağlı lisenziyası yox idi.

# Sarı kəsişmə toru haqqında nəyi bilmirik?

## Paytaxt yollarına sarı torların çəkilməsi ilə bağlı görülən tədbirlərin sayı artıb. Ümumiyyətlə, sarı kəsişmə torunun daha 74 yol kəsişməsində çəkilməsi nəzərdə tutulur

**Paytaxt yollarında tıxacın qarşısını almaq, nəqliyyat vasitələrinin hərəkət nizamlılığını qorumaq üçün yollara sarı kəsişmə torları çəkilir. Lakin hələ də bu proses haqqında tam məlumatı olmayan sürücülər var.**



### Sarı kəsişmə torunun hansı funksiyaları var?

Sarı kəsişmə toru yol kəsişməsində nəqliyyatın kilidlənməsinin qarşısını alır və kəsişməni hər zaman nəqliyyat üçün təmiz saxlayır. Onlar, adətən, iki və daha artıq yolun kəsişməsində, bəzi hallarda dairələrdə, yanğın söndürmə, təcili yardım stansiyalarının qarşısında yerləşdirilir. Sarı kəsişmə toru yollarda nəqliyyat axınının fasiləsizliyini təmin etməyə və ləngimələri azaltmağa xidmət etməklə yanaşı, insanlara yol hərəkəti qaydalarına daha ciddi riayət etməyə və lazımsız cərimələrdən yayınmağa yardım edir.



### Bəs sarı kəsişmə toru haqqında ən əsas nəyi bilməliyik?

Nəqliyyat məsələləri üzrə ekspert Azər Allahverənov mövzu ilə bağlı “İki sahil”ə açıqlamasında bildirdi ki, bu tədbirləri yol-nəqliyyat infrastrukturu üçün vacib qabaqlayıcı tədbir kimi dəyərləndirirəm: “Nəqliyyat vasitəsi sarı kəsişmə toruna o vaxt daxil ola bilər ki, onun çıxışı açıq olsun və sarı qutunu dayanmadan tərk etmək üçün torun digər tərəfində kifayət qədər yer olsun. Sola dönmə əməliyyatını həyata keçirərkən qarşıdan gələn nəqliyyat vasitəsinə mane olmamaq şərtilə sarı qutunun içərisində dayanmaq olar. Yəni kəsişmənin çıxış hissəsində tıxac varsa, sürücünün sarı kəsişmə toruna daxil olması qadağandır. Bu üsulu tətbiq etməkdə ideya tək tıxacın aradan qaldırılması deyil, həm də yol ayrıcını keçmə qaydalarına əməl olunmasını təmin etməkdir. Bizdə həqiqətən də bir sıra küçələr var ki, yol ayrıcını keçən avtomobillər çox kobud səhvlərə yol verirlər. Məsələn, sarı işıqda yol ayrıcına daxil olurlar və bilə-bilə ki, artıq bir azdan onların hərəkət istiqamətində nəqliyyat vasitələrinin hərəkəti dayandırılacaq, onlar həmin yolla kəsişən digər yollardan gələn avtomobillərin yollarını kəsmiş olurlar. Dünyanın bir sıra dövlətlərində tətbiq edilən sarı kəsişmə toru nəqliyyat vasitələrinin məhz bu kimi hərəkətinin qarşısının alınması üçün nəzərdə tutulur.”

### Sarı kəsişmə toruna daxil olan sürücüləri hansı cərimə gözləyir?

“Yol hərəkəti haqqında” Qanunun 75-ci maddəsinin 2-ci bəndinə əsasən, əgər yolayrıcında və ya hərəkət hissələrinin kəsişməsində tıxac yaranıbsa və bu, sürücünü dayanmağa məcbur edərək digər nəqliyyat vasitələrinin hərəkəti üçün maneə yaradacaqsa, sürücünün belə yolayrıcına və ya kəsişmə yerlərinə girməsi qadağandır. Bundan əlavə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 327.2-ci maddəsinə əsasən, yolayrıcını keçmə qaydalarının pozulmasına görə altmış manat məbləğində cərimə və üç cərimə balı nəzərdə tutulub. Torun çəkilməsi insanların yol hərəkəti qaydalarına daha ciddi riayət etməsinə yardım edəcəkdir və məlumatverici xarakter daşıyır. Bakı Nəqliyyat Agentliyinin bu addımı sürücülərin yol kəsişmələrində hərəkət zamanı daha ehtiyatlı və məsuliyyətli davranmalarına xidmət göstərir. Bu vasitənin paytaxtımızda tətbiqi həm də insanları yol hərəkəti qaydalarına daha ciddi riayət etməyə sövq edəcək. Tıxac zamanı qaydalara əməl etməyib kəsişmə zolağına daxil olan sürücülər cərimələnəcəklər.”

Ekspert onu da vurğuladı ki, sarı kəsişmə toru Bakı yollarındakı tıxaclara tamamilə son qoymayacaq: “Sarı kəsişmə toru tıxac probleminin həll olunmasına yönəlməyib, bu üsul tıxacı yaradan amillərdən birinə qarşıdır. Bununla yanaşı, tıxacı yaradan digər amillər də var ki, onlarla bağlı zəruri tədbirlərin həyata keçirilməsi vacibdir. Tıxacların yaranmasının əsas səbəblərindən biri də qeyri-qanuni parketmə, düzgün olmayan dayanma-durma qaydalarıdır. Xüsusilə dar küçələrdə, iki-üç zolaqlı küçələrdə sağ və sol tərəflərdə avtomobil saxladıqda yalnız bir zolaq açıq qalır. Bu da nəqliyyat vasitələrinin böyük axını olan küçələrdə nəqliyyat vasitələrinin sıxlığına, tıxacına səbəb olan bir haldır. Eləcə də bəzi yerlərdə tıxac yaranmasın deyə nəqliyyat vasitələrinin hərəkət istiqaməti dəyişdirilməlidir və ya bəzi yerlərdə yol ayrıcında yeni yol ötürücülərinin quraşdırılmasına ehtiyac var.”

**“İki sahil” qəzeti olaraq sürücülərin sarı kəsişmə toru haqqındakı fikirlərini öyrəndik:**

**Bakı şəhər sakini, sürücü Nəsimi Qurbanovun sözlərinə görə,** bəzi yollarda sarı kəsişmə toruna rast gəlirəm: “Doğrusu, bu mövzuda tam məlumata sahib deyiləm. Bu səbəbdən də cərimə olana bilərəmmi sualı və ehtimalı məni narahat edir. İstərdim ki, sürücülər üçün sarı tor haqqında maarifləndirici tədbirlər keçirilsin.”

**Bakı şəhər sakini, sürücü Xəyyam Hüseynov isə bildirdi ki,** xüsusilə yeni sürücülər, qadın sürücülər, təcrübəsi az olan sürücülər sarı kəsişmə toru haqqında daha çox məlumatlandırılmalıdır. Təcrübəli, peşəkar sürücülər gənclərə nisbətən yol-hərəkət qaydalarına daha yaxşı bələddirlər. Yeni sürücülər isə yolları yaxşı tanımır, qaydalara o qədər bələd deyil. Mən sürücülük vəsiqəsini yeni almışam. Nadir hallarda avtomobil idarə edirəm. Düzü, sarı tora nə düşmüşəm, nə də rast gəlmişəm. Amma aydın şəkildə izahı və məqsədi deyilməzsə, bu tora mən də düşə bilərəm.”

Bütün bu tədbirlər yol-hərəkət qaydalarına riayət olunmasını, nəqliyyat vasitələrinin fasiləsiz və təhlükəsiz hərəkətini təmin etmək üçün həyata keçirilir. Ən əsas məqsəd isə tıxacların aradan qaldırılmasıdır.

**Yaqut Ağaşahqızı,**
*“İki sahil”*

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Geofizika və Geologiya İdarəsi

**müxtəlif növ mal-materiallara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (12008-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.05.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 15.05.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər
* 177 manat (ƏDV daxil olmaqla), Ödəniş edərkən ödənişi təsdiq edən bank tapşırığında açıq satınalma prosedurunun nömrəsi qeyd olunmalıdır.

və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 16:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Bank təminatı:***

* Bank təminatı: (Tələb olunmur)
* İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i miqdarında tələb olunur. (Tələb olunmur)
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır. (Tələb olunmur)
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5% (beş) məbləğində müəyyənləşdirilir. (Tələb olunmur)
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır. (Tələb olunmur)
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır. (Tələb olunmur)
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir. (Tələb olunmur)
* Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.

***V. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 30 (otuz) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

Azərbaycan Respublikası, Bakı şəhəri, N.Nərimanov rayonu, Heydər Əliyev pr-ti, 83 A AZ1033 (indeks),

**Əlaqələndirici şəxs:**
Gülay İbrahimova
Satınalmaların təşkili şöbəsi, mühəndis.
Telefon: (+99 412) 521-04-17
Faks: (+99 412) 521-04-17
gulay.ibrahimova@socar.az
Ilyas.Baqiyev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 15.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Geofizika və Geologiya İdarəsi Satınalmalar qrupu**

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Karbamid zavodu

**sənaye qazlarına (LOT-1) və qarışıq qazlara (LOT-2) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (32002-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 08.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 15.05.2019-cu il, Bakı vaxtı ilə saat: 10:30-ə qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər
* I LOT üçün 177 AZN (ƏDV daxil)
* II LOT üçün 118 AZN (ƏDV daxil)

və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

LOT-1 üzrə Satınalma müqaviləsinin 1 (bir) il ərzində yerinə yetirilməsi tələb olunur.

LOT-2 üzrə Satınalma müqaviləsinin 60 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqəyə təklif verilən zaman bank təminatı tələb olunmur:***

Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur. Daha yüksək avans məbləğləri tələbi ilə verilən təkliflərin kənarlaşdırılması hüququnu satınalan təşkilat özündə saxlayır.

***VI. Satınalan təşkilatın ünvanı:***

Karbamid zavodu, Sumqayıt şəhəri, Bakı-Quba yolunun 35-ci km

**Əlaqələndirici şəxs:**
Rəşad Əhmədov
Komplektləşdirmə və Təchizat şöbəsinin böyük mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 32-025
Korporativ mobil:+994 50 843-20-25
Elektron ünvan: rashad.a.ahmedov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı LOT-1 üzrə 15.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da, LOT-2 üzrə 15.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Karbamid zavodunun Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
**iki sahil** Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 67 (7322) / Çərşənbə axşamı, 16 aprel 2019-cu il






# Elmin açıqlaya bilmədiyi hadisələr

Bəşəriyyət elmə inanmağa çoxdan adət edib. Elm bu gün bir çox sirləri tapıb, lakin elə hadisələr var ki, elm onu hələ də müəyyən edə bilməyib. Ola bilər ki, gələcəkdə bu fenomen hadisələrə aydınlıq gətiriləcək. Lakin hazırda bu kimi hadisələr insanları təəccübləndirməyi bacarır.

**Kliniki ölüm**

Həyatlarında bir dəfə kliniki ölüm keçirmiş insanların bəziləri qaranlıq bir tuneldə yol alıb, sonda isə ağ işığa qovuşduqlarına dair hekayələr danışarlar. O biri dünyaya şübhə ilə baxanlar sözügedən mövzunun travma keçirmiş bir beynin bir sıra xəyallar gördüyünü qeyd edirlər. Buna görə də ölümdən sonrakı həyat anlayışı hələ də sirr olaraq qalır.

**Ruhlar**

Ruhların varlığı haqqında ciddi bir sübut yoxdur. Hələlik onları gördüyünü, söhbət etdiyini, şəkillərini çəkdiyini söyləyən xeyli insan var. Ancaq elm hələ ki, bu varlığı sübuta yetirməyib.

**Deja-vu**

Fransız sözü olan "deja-vu" Azərbaycan dilinə tərcümədə "daha öncə görülmüş" mənasını verir. İnsanların demək olar ki, 97%-i bu hadisə ilə qarşılaşırlar. Xüsusi bir xatirə olaraq düşünülür və nə vaxtsa bu hadisəni görmüş olduğunuzu hissetmə halıdır. Hər kəsin həyatında bir və ya bir neçə dəfə yaşadığı bu hiss təəccüblü, anlaşılmaz sehirli və tükürpədicidir. Alimlər deja-vu ilə əlaqədar bəzi açıqlamalar verməyə çalışsalar da, bu sehirli hissin səbəbi hələ də sirr olaraq qalır.

**Uçan boşqablar**

Bəli, uçan boşqablar var. Çünki dünyanın hər yerində səmada nə olduğu bilinməyən bir sıra obyektlər göründüyünü iddia edənlər var. Amma bu obyektlərin əslində bir təyyarə, yoxsa həqiqətən də bir Kosmos gəmisi olduğu bilinmir. Məhz buna görə də bu məsələnin sirri heç cür açılmır.

**Psixi güc**

Həm Şərqdə, həm də Qərbdə bir sıra insanlar psixi güclərə inanırlar. Bu günə kimi psixi gücləri olduğunu deyənlər alimlər tərəfindən test edilib. Hər dəfə də ya heç nə edə bilməyiblər, ya da ediblərsə, nə isə şübhəli qalıb. Altıncı hissin gücünə inanan adamlar hələ tam dəqiqliyi ilə bu hissin sübutunu elmə aça bilməyiblər.

✍ **Könül Cavid,**
***"İki sahil"***

# Mövsümün sonunda karyerasını bitirəcək



"Yuventus"un müdafiəçisi Andrea Barzaqli mövsümün sonunda futbolçu karyerasını bitirəcək.

Milli.Az goal.az-a istinadən xəbər verir ki, bu barədə 37 yaşlı futbolçu İtaliya mətbuatına açıqlamasında deyib. Barzaqli, cari mövsümün sonunda futbolçu karyerasını bitirəcəyini bildirib.

Karyerası ərzində "Askoli", "Volfsburq", "Kievo", "Palermo" kimi klubların şərəfini qoruyan Barzaqli, 2011-ci ildən "Yuventus"da çıxış edir. Müdafiəçi 74 dəfə də İtaliya millisində forma geyinib.

# DANIŞILMIŞ OYUNLARDAN 10 MİLYON QAZANAN KLUBA AĞIR CƏZA



Ukraynanın "Sumy" futbol komandasının iştirakçısı olduğu danışılmış oyunlardan 10 milyon avro qazanc götürülüb.

Milli.Az Goal.az-a istinadən xəbər verir ki, bu barədə "Futbol 1" telekanalında yayımlanan "Velikiy futbol" proqramında bildirilib. Məlumata görə, Ukrayna ikinci liqasında çıxış edən komanda 1,5 il ərzində 30-dək danışılmış oyun təşkil edib.

Bu görüşlərdən müxtəlif şəxslər ümumilikdə 10 milyon avro irəli düşüblər.

Qeyd edək ki, bir müddət əvvəl Ukrayna Futbol Federasiyası ölkənin ikinci liqasında çıxış edən "Sumy"nı bütün yarışlardan kənarlaşdırıb. Komandanın özü isə peşəkar statusdan məhrum edilib.

# "Kral" meyvəsinin faydaları



Liçi meyvəsi son zamanlarda məşhur olmağa başlayan tropik meyvələrdən biridir. Pəhriz mütəxəssisləri şirin üzüm kimi təsvir edə biləcəyimiz liçi meyvələrinin keçmiş zamanlarda xalqdan vergi olaraq yığıldığı üçün kral meyvəsi olaraq da bilindiyini deyib.

Liçi meyvəsi təxminən 3 santimetr ölçüsündə, çəhrayı qabıqlı və isti iqlimlərin əvəzsiz meyvəsidir. Bu meyvə liçi ağacında salxım formasında yetişdirilir.

Tropik meyvələr arasında dadı və iştahaçan rəngi ilə fərqlənən liçi meyvəsi Çində yetişdirilir. Sərt xarici qabığı, zəngin daxili toxuması ilə liçi meyvəsi, tərkibində bir çox mineral və vitaminlər sayəsində real sağlamlıq vasitəsidir. Xüsusilə C vitamini ilə zəngin olan liçi meyvəsi gündə 9 ədəd yeməklə gündəlik C vitamini ehtiyacını təmin edə bilər. Onun tərkibi sadəcə bunlarla məhdud deyil. Kalsium, selenium, mis, fosfat və maqnezium mənbəyi olan liçi eyni zamanda, lif qaynağıdır.

**Liçi meyvəsi necə yeyilir?**

Tropik meyvə olması səbəbi ilə yeyilməsi ilə bağlı bir çox suallar var. Ləzzəti ilə fərqlənən liçi meyvəsi qabığı soyulub, içərisindəki toxumlar çıxarıldıqdan sonra yeyilir. Qabığı sərtdir və asanlıqla soyula bilər. Tək yeyilməsi ilə yanaşı, şirniyyatlar, salatlar və dondurmaların tərkibinə qatılaraq da yeyilə bilər.

**Liçi meyvəsinin möhtəşəm faydaları**

* Lifləri sayəsində həzm sisteminin fəaliyyətində fəal rol oynayır.
* C vitamini qaynağı olan liçi immunitet sistemini gücləndirməyə kömək edir. Bədənin müqavimətini artıraraq xəstəlik riskini azaldır.
* Həmçinin təbii antioksidant mənbəyi olan liçi meyvəsi qan-damar tıxanıqlığını müalicə edərək ürək sağlamlığını qoruyur.
* Dəri üçün mühüm faydaları olan liçi meyvəsi, yalnız dərini qorumur, həm də nəmləndirir və yaşlanmasını gecikdirir.
* Tərkibindəki kalium sayəsində böyrəkləri aktivləşdirir və qanın tərkibindəki zərərli maddələrin çıxarılmasını asanlaşdırır.
* İçərisi açıq çəhrayı rəngdədirsə, bu onun təzə olduğuna işarədir. Qabığının qəhvəyi rəngdə olması meyvənin təzə olmadığını göstərir.

✍ **Röya Rasimqızı, *"İki sahil"***

**ELAN:**

***Süleymanov Süleyman Dünyamalı oğluna məxsus Bakı şəhəri, Nizami rayonu, Bəhruz Nuriyev küçəsi b.24a, m.35 ünvanında yerləşən əmlakın 009011000353-05101-093084 reyestr nömrəli texniki pasportu itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Ali Məktəbin İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri şöbəsinin referenti Elnarə Zeynalovaya, əzizi

**Əfruz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Pirallahıdan Vasif İmanov SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunun Əsaslı tikinti üzrə direktor müavini Bəşir Əhmədova, qardaşı

**Cəfər Əhmədovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**
Baş redaktorun I müavini: **İsmayıl HACIYEV**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437
00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* **ikisahil@azdata.net**

**Ünvan:** AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 16.04.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8213**
*İndeks:* **0151**, *Sifariş:* **1275**

Qəzetdə *"AZƏRTAC", "OLAYLAR", "AzadInform", "TREND", SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.